9 noyabr Dövlət Bayrağı, 12 noyabr Milli Konstitusiya Günüdür!

GÜNDOĞAR

7 noyabr 2014-cü il № 35-36-37 (6545) İCTİMAİ-SİYASİ QƏZET Qəzet 1931-ci ildən çıxır. e-mail: gundogarqazeti@box.az

Təsisçilər: Neftçala Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi

GƏNCLƏR SİYASƏTİ ÜZRƏ BİRİNCİ QLOBAL FORUM

Bu forumun Bakıda keçirilməsi ölkəmizin beynəlxalq aləmdəki nüfuzuna daha bir sübutdur

Son vaxtlar Azərbaycan bir-birindən mötəbər, bir-birindən əhəmiyyətli beynəlxalq tədbirlərə ev sahibliyi edir. Bu, Azərbaycanın dünya ölkələri arasındakı yüksək reytinqindən xəbər verir. Oktyabrın 28-də Gənclər Siyasəti üzrə Birinci Qlobal Forumun Bakıda keçirilməsi də bununla əlaqədardır. Forum iştirakçılarına ünvanladığı məktubda bu mötəbər tədbirin Bakı şəhərində keçirilməsi barədə qərarı ölkəmizin gənclərlə iş sahəsindəki təcrübəsinə verilən yüksək qiymət kimi dəyərləndirən dövlət başçısı cənab İlham Əliyev qeyd etmişdir ki, bu toplantı qloballaşmanın geniş vüsət aldığı müasir dövrdə gənclər siyasətinin prioritetlərinin dərinləşdirilməsi, problemlərin həlli yollarının araşdırılması, iştirakçı ölkələrin dövlət orqanları və qeyri-hökumət təşkilatları arasında təcrübə mübadiləsinin aparılması baxımından əhəmiyyətli olacaq, səmərəli müzakirələrlə yadda qalacaqdır.

Ertəsi gün — oktyabrın 29-da Forumun rəsmi açılış mərasimi olmuşdur. Açılış mərasimində iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin söylədiyi dərin məzmunlu nitq böyük maraqla dinlənilmişdir. Dövlətimizin başçısı qeyd etmişdir ki, gənclər siyasəti ilə bağlı ölkəmizdə keçirilən ilk qlobal forum bizim üçün çox vacib tədbirdir. Bunu hökumətimizin idman və gənclər, fəal inkişaf siyasəti sahəsində göstərdiyi səylərin yüksək qiymətləndirilməsi kimi qəbul edirik.

Təhsil və savadlılıq məsələsinə toxunan Prezident İlham Əliyev demişdir: "Əgər dünyada inkişaf etmiş ölkələrin keçdiyi yola və əldə etdikləri nailiyyətlərə nəzər yetirsək, görərik ki, uğurlu inkişafın əsas vasitələri enerji sərvətləri, mineral ehtiyatlar, neft və qaz yox, məhz təhsil, elm və texnoloji yeniliklərdir. Yalnız təhsil, bilik və texnologiya bütün bəşəriyyətin aparıcı qüvvəsidir."

Haqlı olaraq qeyd olunmuşdur ki, hökumətimiz üçün prioritetlərdən biri də idmandır. İdmançılarımız Azərbaycanı beynəlxalq yarışlarda, dünya və Avropa çempionatlarında, eləcə də Olimpiya oyunlarında layiqincə təmsil edirlər. 2012-ci il London Yay Olimpiya Oyunlarında ölkəmizin əvvəlki illərlə müqayisədə ən yüksək nəticəni əldə etməsi, 200 ölkə arasında 30-cu yerdə qərarlaşması və digər parlaq qələbələr həyata keçirilən məqsədyönlü siyasətin bəhrəsidir. Gələn il Azərbaycanda ilk Avropa Oyunlarının keçirilməsi bizim üçün sözün əsl mənasında tarixi hadisə olacaq. 2016-cı ildə Azərbaycan dünya şahmat olimpiadasına, 2017-ci ildə isə İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edəcəkdir.

Təhlükəsizlik məsələlərinə toxunan dövlətimizin başçısı sərhədlərimizi qoruyan, hazırda erməni təcavüzkarları ilə üzbəüz səngərdə dayananların məhz gənc azərbaycanlıların olduğunu böyük qürur hissi ilə dilə gətirmişdir. Qeyd etmişdir ki, erməni təcavüzü zamanı əziyyət çəkmiş insanlarımızın əksəriyyəti də elə gənc nəslin nümayəndələridir. Dağlıq Qarabağ Azərbaycanın tarixi hissəsidir, əsrlər boyu azərbaycanlılar bu bölgədə yaşayıblar. Onların faciələrinə səbəb, torpaqlarımızın 20 faizinin işğal olunması məhz Ermənistanın dəstəklədiyi təcavüzkar seperatizmdir ki, bundan da yüz minlərlə insanlar əziyyət çəkirlər. BMT Təhlükəsizlik Şurası erməni qoşunlarının Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etsə də Ermənistanın bu tələbləri yerinə yetirməməsi böyük təəssüf hissi doğurur.

Amma Azərbaycan güclənir, inkişaf edir, Silahlı Qüvvələri dünyanın ən güclü, ən modern ordularından birinə çevrilir. Ona görə də dövlətimizin başçısı qətiyyətlə vurğulamışdır ki, o gün gələcək və biz öz doğma torpağımıza — Dağlıq Qarabağa, eləcə də işğal olunmuş digər ərazilərə qayıdacağıq. Beynəlxalq ictimaiyyət nəinki bu məsələ ilə əlaqədar, ümumiyyətlə, bizi qəti surətdə dəstəkləyir. Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi bunun bariz nümunəsi oldu. Bu, yalnız bizim fəal diplomatiyamızın və beynəlxalq səviyyədə səylərimizin sayəsində deyil, o cümlədən Azərbaycanın etibarlı tərəfdaş, müstəqil xarici siyasət yürüdən, regional və beynəlxalq problemlərə gəldikdə, öz mövqeyi ilə seçilən ölkə kimi tanınması nəticəsində mümkün oldu. Biz Təhlükəsizlik Şurasının üzvü olduğumuz iki il ərzində öncədən bəyan etdiyimiz kimi, ədalətli və beynəlxalq hüququ müdafiə etdik.

Dövlətimizin başçısı siyasətimizin gələcək istiqamətlərinə də geniş aydınlıq gətirmişdir. Bu, regional əməkdaşlıq və qarşılıqlı dəstək vasitəsilə milli maraqlara, o cümlədən iqtisadi maraqlara, təhlükəsizliyə və sabitliyə doğru yönələn siyasətdir demişdir. İrəli sürdüyümüz iqtisadi, enerji və daşımalar təşəbbüsləri bütün iştirakçılara fayda verir. Bu təşəbbüslərə qoşulmuş bütün ölkələr bunlardan bəhrələnirlər.

Nitqinin sonunda Prezident İlham Əliyev demişdir: "... Qonaqlarımızı burada qəbul etmək bizim üçün böyük şərəfdir. Fikrimcə, Forum nəinki müzakirələr, o cümlədən Azərbaycan haqqında çox şey bilmək, ölkəmizi daha yaxından tanımaq imkanı baxımından vacib olacaq... Azərbaycan öz prioritetlərini və məqsədlərini aydın şəkildə müəyyən etmiş gənc, müstəqil, dinamik və müasir ölkədir. Biz Azərbaycan gəncləri kimi böyük potensialla, uğurumuzun aparıcı qüvvəsi ilə gələcəkdə daha böyük nailiyyətlərə imza atacağıq."

Azərbaycan Respublikası Prezidentinin reytinqi yüksək olaraq qalmaqdadır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin reytinqi yüksək olaraq qalmaqdadır.

"Rəy" Monitorinq Mərkəzinin bu günlərdə Bakıda keçirdiyi "omnibus" tipli ictimai rəy sorğusunun nəticələri göstərir ki, paytaxt əhalisinin əksəriyyəti dövlət başçısını dəstəkləyir.

Monitorinq Mərkəzindən AzərTAc-a verilən məlumata görə, sorğu zamanı məlum olub ki, prezident seçkiləri gələn bazar günü keçirilsəydi, səsvermə məntəqələrinə gələcək respondentlərin əksəriyyəti (83 faiz) öz səsini hazırkı dövlət başçısına verərdi.

Bakı sakinlərinin 65 faizi Azərbaycan Prezidenti vəzifəsində İlham Əliyevə alternativ görmür. Respondentlərin 82 faizi "İlham Əliyev sizin maraqlarınıza cavab verirmi" sualını müsbət cavablandırıb.

Rəyi soruşulanların 68 faizi isə ölkədə işlərin düzgün istiqamətdə getdiyini düşünür.

"Omnibus" tipli ictimai rəy sorğusu cari il oktyabrın 17-dən 21-dək keçirilib. Yaşayış yeri üzrə üzbəüz müsahibə yolu ilə keçirilən sorğuya 18 yaşdan yuxarı 1300-ə yaxın sakin cəlb olunub. Sorğu nəticələrinin statistik nisbi xətası 3,4 faizdən çox deyil.

ŞƏRƏFİMİZ, ŞANIMIZ

Bayraq qədimdən insanların şərəf, şan rəmzi sayılıb. Qaldırdığımız, ucaltdığımız üçrəngli bayrağımız bizim şərəfimiz, şöhrətimiz, şanımızdırsa, biz də bu bayrağın özülü, dayağı, daşıyıcılarıyıq. Şərəfimizi, şöhrətimizi uca tutmaq, hər yerdə tanıtmaq istəyiriksə, gərək daşıdığımız bayrağı əlimizdə həmişə möhkəm saxlayaq, onu ucalardan ucalara qaldıraq.

Bu bayrağı ilk dəfə qaldıranların vəsiyyətinə əməl edərək indiki nəsil onun bir daha enməməsi üçün bu bayrağı daha ucalara qaldırıb, daha ucalarda dalğalandırır. İlk növbədə Ulu Öndərimiz Heydər Əliyevin hünəri, cəsarəti, əzmkarlığı, möhtərəm Prezidentimiz İlham Əliyevin qətiyyəti, siyasi iradəsi sayəsində. Əgər Ümummilli Lider Heydər Əliyev öz müdrikliyi, cəsarəti, qətiyyəti ilə böyük qırğınlar, qanlar bahasına əldə edilmiş müstəqilliyimizi qoruyub saxladısa, bir dəfə qalxan bayrağımızın bir daha enməsinə yol vermədisə, möhtərəm Prezidentimiz İlham Əliyev öz qətiyyəti və siyasi iradəsi ilə bu bayrağı daha ucalara qaldırdı, daha ucalarda dalğalandırdı...

Xəzər dənizinin sahilində belə bir möhtəşəm bayraq ucaltmaq, burada qeyri-adi bir Bayraq Meydanı yaratmaq doğrudan da böyük cəsarət tələb edən fantastik bir ideya, ağlasığmaz bir layihə idi. Ona görə təməli 2007-ci il dekabr ayının 30-da qoyulmuş Prezident İlham Əliyevin bu cəsarətli layihəsi çox qısa bir vaxt ərzində başa çatanda, 2010-cu il sentyabr ayının 1-də reallaşanda, ölkə rəsmilərinin iştirakı ilə Dövlət Bayrağı Meydanının açılışı keçirilərəndə, möhtəşəm bayrağımız belə bir yüksəkliyə qaldırılanda, orada əzəmətlə dalğalananda hamı bu bayrağa heyranlıqla tamaşa etməyə başladı.

60 hektar sahəni əhatə edən Bayraq Meydanında dalğalanan Dövlət bayrağımızın ölçüləri doğrudan da heyrətamiz, möhtəşəmdir. Bu bayrağın dirəyinin hündürlüyü 162 metr, diametri 3,2 metr, qurğunun ümumi çəkisi 320 ton, bayrağın çəkisi isə 350 kiloqramdır. Dövlət bayrağımızın ucaldığı meydanda qızıl suyuna salınmış büründən hazırlanan respublikamızın gerbi, Dövlət himninin mətni, ölkənin iri ölçülü xəritəsi, qiymətli eksponatlardan ibarət tarixi keçmişimizə və bu günümüzə dair muzey də var. Bütün bunlar meydanın mənzərəsini tamamlayır, onu daha da zənginləşdirir, ora daha monumental bir görkəm verir.

Onu da deyək ki, belə bir hündürlükdə, belə bir əzəmətdə bayraq dünyada ilk dəfə məhz bizim ölkəmizdə ucaldılıb. Buna görə Ginnes Dünya Rekordlar Təşkilatı Azərbaycanın Dövlət Bayrağı dirəyini dünyada ən hündür bayraq dirəyi kimi təsdiqləyib. Biz belə bir bayraqla öyünüb fəxr etməyə, onu iftixarla başımızın üstündə dalğalandırmağa, Bayraq bayramı keçirməyə layiqik. Buna görə də möhtərəm Prezidentimiz İlham Əliyev 17 noyabr 2009-cu il tarixli sərəncamı ilə hər il noyabr ayının 9-nu ölkəmizdə Dövlət Bayrağı Günü elan etmişdir.

Bu gün rayonumuzun mərkəzi Neftçala şəhərində, Kür çayının sahilində də əzəmətli bir Dövlət Bayrağı dalğalanır. Respublikamızın paytaxtında dalğalanan əzəmətli Dövlət Bayrağımız kimi bu bayraq da bizim hər birimizi ruhən ucaldır, bir-birindən parlaq qələbələr əldə etməyə çağırır. Oktyabrın 9-da respublikamızın hər yerində olduğu kimi rayonumuzda da Dövlət Bayrağı Günü böyük təntənə ilə qeyd ediləcək, bu bayramla əlaqədar bir-birindən maraqlı, yaddaqalan tədbirlər həyata keçiriləcəkdir.

Komissiyanın arayışı şura iclasında geniş müzakirə olundu

Rayon icra hakimiyyəti başçısı yanında fəaliyyt göstərən şuranın yığıncaqlarında bir qayda olaraq həmişə həyati zərurətdən doğan ən mühüm məsələlər müzakirə olunur, müvafiq qərarlar qəbul edilir. Müzakirələr zamanı aparılan təhlillər, çıxarılan nəticələr, qəbul olunan qərarlar, Rayonu İcra Hakimiyyətində və dövlət hakimiyyəti orqanlarının yerli qurumlarında vətəndaşların müraciətlərinə baxılmasının, qəbulunun və sənədlərlə işin vəziyyətinin öyrənilməsi haqqında arayış"dan irəli gələn müddəalar, nöqsan və çatışmazlıqlar komissiya üzvlərinin, Prezident Administrasiyası Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin baş məsləhətçisi Dəyanət Abdullayevin iştirakı ilə geniş tərkibdə müzakirə olunmuşdur.

Rayon icra hakimiyyəti başçısının birinci müavini Dilavər Əliyev, başçının müavini Nəriman Xəlilov, başçı aparatının ərazi idarəetmə şöbəsinin müdiri Anar Cəfərov, rayon polis şöbəsinin rəisi Əli İbrahimov, rayon prokuroru Pərvin Quliyev, rayon təhsil şöbəsinin müdiri Əjdər Kərimov, rayon torpaq şöbəsinin müdiri Mustafa Əliyev, rayon məşğulluq mərkəzinin direktor əvəzi Aslan Qafarov və başqaları çıxış edərək müzakirə olunan məsələ ilə əlaqədar öz fikir və mülahizələrini bildirmiş, verilən suallara aydınlıq gətirmişlər.

Hazırkı şəraitdə vətəndaşların müraciətlərinə baxılmasının, qəbulunun və sənədlərlə işin aktuallığının necə böyük əhəmiyyət daşımasından danışan Prezident Administrasiyası Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin baş məsləhətçisi Dəyanət Abdullayev hər bir müraciətə, şikayətə həssaslıqla yanaşılmasının, qəbullar zamanı etik davranış qaydalarına düzgün əməl edilməsinin vacibliyini diqqətə çatdırmışdır.

Prezident Administrasiyası sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi müdirinin müavini Fikrət Əzizov qeyd etmişdir ki, bir çox hallarda yuxarı təşkilatlara ünvanlanan şikayətlərin, müraciətlərin əsas səbəbi yerli təşkilatlarda, ayrı-ayrı idarə və müəssisələrdə vətəndaş müraciətlərinə kifayət qədər məsuliyyətlə yanaşılmaması, bu vacib məsələyə laqeydlik göstərilməsidir. Buna görə vətəndaşların müraciətlərinə baxılması, onların qəbulu, sənədlərlə işin təşkili daim diqqət mərkəzində olmalı, bu işlərin daha da yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilməlidir.

Müzakirələr başa çatdıqdan sonra qəbul olunan qərara müvafiq olaraq rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyev əmr imzalamışdır. Əmrə əsasən arayışda qeyd olunan nöqsan və çatışmazlıqlar əldə rəhbər tutularaq bir qrup məsul şəxs barəsində intizam tənbehi tədbir görülmüşdür.

Hazırda qərardan irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində tədbirlər görülür.

BAYRAM TƏDBİRLƏRİ

Deyirlər hər hansı uğuru, nailiyyəti əldə saxlamaq ona nail olmaqdan daha çətindir. Müstəqilliyimiz dövründə biz bunu əyani şəkildə görürük. Bu böyük qələbə heç də asan başa gəlməmişdi xalqımıza. Amma onu qoruyub saxlamaq, inkişaf etdirmək daha çətin oldu. Böyük dövlətçilik təcrübəsinə, yüksək siyasi iradəyə malik Ulu Öndər Heydər Əliyev ən çətin anlarda xalqının, millətinin harayına gəlməsəydi, yəqin ki, müstəqilliyimizi qoruyub saxlamaq, inkişaf etdirmək mümkün olmazdı. Çox böyük sınaqlarla, terror təhlükələri ilə, qətllərlə üz-üzə qalsaq da Ulu Öndərin sarsılmaz iradəsi, müdrikliyi sayəsində qarşıya çıxan bütün bəlalardan qurtula bildik. Ona görə də bu gün müstəqilliyimizin böyük sevincini yaşayır, qazandığımız uğurlarla, nailiyyətlərlə fəxr edirik.

Oktyabrın 18-də Müstəqillik Günündə ölkəmizin hər yerində bir-birindən maraqlı, rəngarəng tədbirlərin keçirilməsi də bununla bağlıdır. Həmin gün neftçalalılar üçün də əzizdir, unudulmazdır. O gün yaşından, peşəsindən asılı olmayaraq hər bir rayon sakini əsl bayram əhvali-ruhiyyəsi ilə yaşayırdı. İdarə və müəssisələrdə, mədəniyyət obyektlərində, məktəblərdə, uşaq tərbiyə müəssisələrində təşkil olunan tədbirlərdə böyük sevinc yaşanırdı.

Müstəqillik günü ilə bağlı keçirilən ümumrayon tədbiri xüsusilə yaddaqalan oldu. Rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev, başçı yanında fəaliyyət göstərən şuranın üzvləri, idarə və müəssisələrin rəhbərləri, rayon ictimaiyyətinin nümayəndələri ilk öncə müstəqil Azərbaycının memarı və qurucusu Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gələrək buraya tər çiçəklər düzdülər, dahi rəhbərə özlərinin dərin hörmət və ehtiramlarını bildirdilər.

Sonra Ulu Öndərin adını daşıyan mərkəzdə böyük bayram konserti oldu. Rayon mədəniyyət və turizm şöbəsinin hazırladığı maraqlı proqram bayram əhvali-ruhiyyəsinə yeni xoş ovqat qatdı.

* * *

Noyabrın 9-da da ölkəmizdə böyük bayram sevinci yaşanacaqdır. Noyabrın 9-u Azərbaycan Bayrağı Günüdür. Dünyanın digər millətləri kimi bayraq xalqımız üçün də müqəddəsdir, dövlətimizin azadlıq rəmzidir. İlk dəfə üçrəngli bayrağımızı başımız üzərinə ötən əsrin əvvəlində — 1918-ci ildə qaldırsaq da, çox təəssüf ki, onu uzun illər dalğalandıra bilməmişdik. Bu şirin nemət bir də bizə əsrin sonunda qismət oldu. Müstəqilliyimizi bərpa etdikdən sonra onu yenidən başımız üzərinə qaldırdıq və Ulu Öndər Heydər Əliyevin qüdrəti sayəsində indiyə qədər ən yüksək zirvədə əzəmətlə dalğalandırırıq.

Möhtərəm Prezidentimiz İlham Əliyevin 17 noyabr 2009-cu il tarixli sərəncamına əsasən 2010-cu ildən 9 noyabr Azərbaycan Bayrağı Günü kimi qeyd edilir.

Azərbaycan Bayrağı Günündən üç gün sonra, noyabrın 12-də isə xalqımız yeni əziz bir bayramın — Milli Konstitusiya Gününün böyük sevincini, fərəhini yaşayacaqdır. Bizi dünyaya qovuşduran, hüquq və azadlıqlarımızı təmin edən Qanunlar Toplumuzun yaradıcısı da Ümummilli Lider Heydər Əliyevdir. Zamanın tələbinə uyğun olaraq dəfələrlə yeniləşdirilərək təkmilləşdirilən, müasirləşdirilən Konstitusiyamız hüquq və azadlıqlarımızın möhkəm təminatçısı kimi bu gün də fəaliyyətdədir.

Belə əziz bayramlar rayonumuzda da təntənə ilə qeyd edilir, neftçalalılar da xoş hisslərlə, duyğularla yaşayırlar. İdarə və müəssisələrdə, məktəblərdə, mədəniyyət obyektlərində, məktəbəqədər uşaq tərbiyə müəssisələrində bir-birindən maraqlı, rəngarəng tədbirlər təşkil olunur.

Vətəndaşların nəzərinə!

Hörmətli neftçalalılar, Sizi narahat edən məsələlərlə, yaranmış hər hansı çətinlik və problemlərlə əlaqədar həftənin bütün günlərində və saatlarında Neftçala Rayonu İcra Hakimiyyəti başçısı aparatında fəaliyyət göstərən **"Qaynar xətt"ə** müraciət edə bilərsiniz. Telefon: **(0-21-26) 3-42-57**

Elektron müraciət etmək üçün **E-mail ünvanı: mail@neftchala-ih.gov.az**

Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının 15 illiyinə həsr olunmuş yubiley mərasimindəki çıxışını oxuyarkən

BU SUALLARA BİRLİKDƏ CAVAB TAPMALIYIQ

Bir neçə gün öncə keçirilən Dövlət İdarəçilik Akademiyasının 15 illik yubileyi mərasimi həm də mühüm tarixi bir çıxışla yadda qaldı. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev yubiley mərasimində etdiyi bu çıxışda müasir cəmiyyətimizdə baş verən problemləri bir daha önə çıxardı, onların aradan qaldırılması üçün hər birimizi birgə həll yollarını axtarıb tapmağa dəvət etdi. Akademik təkcə yüksək səviyyəli dövlət məmuru kimi yox, eyni zamanda bir vətəndaş, bir ziyalı kimi yaranmış vəziyyəti doğrudürüst şərh etdi, bu məsələlərə öz kəskin münasibətini bildirdi. Bu çıxışda qaldırılan aktual problemlər hamımızı dərindən düşünməyə vadar edir. Əslində, həmin problemlər cəmiyyətimizin öz içindədir: biz bunları hər gün görür, bu proseslərlə hər gün rastlaşırıq. Bu çıxışdan bir məqamı nəzərə çatdıraq: "Məlumdur ki, qloballaşma dövründə milli dövlət anlayışı özü özlüyündə ciddi transformasiyalara məruz qalır. Axı, dövlət dedikdə biz, ilk növbədə, dövlət təsisatlarını və məmurları nəzərdə tuturuq. İndiki dövrdə insan kapitalının, mədəni kapitalın və ümumən insan inkişafına qoyulan sərmayənin əhəmiyyəti kəskin surətdə artır. Bu, cəmiyyətin bütün üzvlərinə aid olsa da, mən xüsusi olaraq diqqəti məhz məmur şəxsiyyətinə yönəltmək istərdim... Meydana çıxan çoxsaylı sualların mahiyyəti ondan ibarətdir ki, müasir məmurun məlumatlanması və ixtisaslaşması hansı meyarlar əsasında müəyyənləşməlidir?"

Daha sonra akademik Ramiz Mehdiyev kadr çatışmazlığından söhbət açır, indiki halda idarəetmə mexanizmlərinin, prinsiplərinin dəyişməsinin zəruriliyindən danışır, yeni kadr potensialına böyük bir ehtiyacın olduğunu qeyd edir: "Lakin açıq etiraf etmək lazımdır ki, həm Prezident Administrasiyası, həm nazirliklər, həm də yerli hakimiyyət strukturları bu gün ciddi kadr böhranı problemi ilə üzləşiblər. Biz hamımız müasir idarəetmənin incəliklərinə bələd olan hazırlıqlı kadrlara ehtiyac duyuruq və etiraf etməliyik ki, yüksək tələblərə uyğun kadr tapmaqda çətinlik çəkirik."

Məlumdur ki, bu gün Azərbaycan adı və nüfuzu ilə dünya dövlətləri içərisində özünəməxsus yer tutur. Bu isə asan başa gəlməyib, böyük siyasətin, mühüm islahatların, möhkəm iradə və bacarığın, yüksək bilik və kamilliyin nəticəsində əldə edilib. Buna hamımız sevinirik. Amma gəlin görək idarəetmə sahəsində çalışan məmurların hamısı dövlətimizin inkişafı, cəmiyyətimizin tərəqqisi yolunda onlara həvalə edilən işin, vəzifənin öhdəsindən eyni dərəcədə gəlirlərmi? Yəqin ki, bu sual hamını narahat edir. Akademikin çıxışında da bu məsələ kəskin şəkildə qoyulur.

Hörmətli akademik öz çıxışında indiki təhsil sistemində yaranmış vəziyyətə də geniş toxunur: "Əvvəlki

dövrlərdə təhsil prosesi yalnız ailəni və məktəbi əhatə edirdi, mənimsənilən biliklərin də həcmi kifayət qədər məhdud idi. Bu gün isə biz müstəqil şəkildə ömür boyu yeni biliklər əldə etməyə qadir olan insan və vətəndaş yetişdirməliyik. Bu, çox mürəkkəb prosesdir." Burada Ramiz Mehdiyev məktəbin yekun məhsulunun savadlı və bacarıqlı şagird olduğunu vurğulayır, təhsil işçilərini daha məsuliyyətli olmağa çağırır. Bu yerdə bir şeyi qeyd etmək istəyirəm. Bu gün doğrudan da müasir dövrümüzdə təhsil çox önəm daşıyır və bu sahədə əldə etdiyimiz uğurlar, qazandığımız nailiyyətlər göz qarşısındadır. Biz bunlara gərgin əməyin və işgüzar zəhmətin sayəsində müvəffəq olmuşuq. "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi və onun fəaliyyəti görünən reallıqdır. Bununla qürur duymaya bilmirsən. Lakin təhsil sahəsində meydana çıxan neqativ hallar hələ də qalmaqdadır. Dəyərli alimimiz təhsil sahəsindəki qüsurları, çatışmazlıqları aradan qaldırmağı vacib məsələ kimi qarşıya qoymuşdur. Akademik bildirir: "Aydındır ki, bu məsələlər təkcə məni yox, bütün Azərbaycan ziyalılarını narahat edir. Bu narahatlıqdan qurtarmaq üçün lazımi fəaliyyət proqramı işlənib hazırlanmalı və həyata keçirilməlidir." R.Mehdiyev onu da nəzər-diqqətə çatdırır ki, yeni texnologiyalar və innovasiyalar tamamilə yeni bir məkan və ünsiyyət vasitələri yaradıb. Əfsuslar olsun ki, nə bu şəbəkələrin, nə də internetin özünün insan psixologiyasına və həyatına təsiri araşdırılmır. Bu gün gənclər həyatlarının demək olar, çox hissəsini məhz virtual məkanda keçirirlər. Aydındır ki, kimsə nə bu prosesin qarşısını ala, nə də ona müdaxilə edə bilir. Amma bu proseslər ən azı təhlil olunmalıdır.

Beynəlxalq Humanitar Forumun iştirakçısı olan Nobel mükafatı laureatlarından biri internetlə bağlı belə bir ciddi narahatlığını bildirdi. Onun fikrincə, bu gün internetdə mövcud informasiyaların böyük qismi sadəcə olaraq yanlış məlumatlardır. Araşdırma bacarığından və sanballı təhsildən uzaq olan bir gənc isə doğru ilə yanlış informasiyanı, əlbəttə, bir-birindən ayıra bilməyəcək. İnternet məkanı ilə bağlı kifayət qədər dərin, fəlsəfi, etik və metodoloji problemlər var."

Bəli, deyilənlər həqiqətdir. Hər birimiz bu cəmiyyətdə yaşayırıq. Təəssüflər olsun ki, internetin ayaq açdığı məkanda əksər gənclər elm, bilik öyrənmək əvəzinə, vaxtlarını mənasız əyləncələrə sərf edir, bununla da, guya internetdən yararlanırlar. Nəinki internetlə, hətta mobil telefonlar vasitəsilə də cürbəcür oyunlar oynayan, gərəksiz yazışmalar aparan bəzi gənclər əslində vaxtlarını öldürməyə çalışır, texnologiyalardan bu cür istifadəni müasirlik hesab edirlər. İnternet vasitəsilə tanışlıq onların erkən yaşlarda ailə qurmasına da gətirib çıxarır ki, bu da tez qurulan ailənin tez də dağılması ilə nəticələnir. Bəziləri internetdən istifadə edərkən etik normalara riayət etmirlər. Hesab edirəm ki, cəmiyyətimizin milli əxlaqına, mənəvi dəyərlərinə ziyan yetirən internet saytlarının yayımlanmasının qarşısı alınmalı, belə hallara son qoyulmalıdır.

Bir məsələyə də toxunaq. Ali məktəblərdə təhsil alan bir çox tələbələr yalnız diplom haqqında düşünürlər. Düşünmürlər ki, diplomu əldə etdikdən sonra hər hansı bir müəssisədə çalışarkən onlara məhz tələbə olduqları dövrdə qazandıqları elm, bilik kömək dura bilər. Savadı olmayan gəncin diplomu kimə gərəkdir?! Bəzi gənclərimiz isə yalnız varlanmaq eşqi ilə yaşayır, hər şeyin mənasını pulda, dövlətdə görürlər. Bahalı maşın yarışına girən kim, dəbdəbəli evlər tikdirən kim. Hər şeyi bu

həddə gətirib çıxarmağın bizə xeyri nədir? İnsan cəmiyyətdə ilk növbədə biliyi, düşüncəsi, dünyagörüşü, işgüzarlığı, əxlaqı, mədəniyyəti, inamı, etiqadı ilə hörmət qazanmalıdır. Pula həddindən artıq həvəslik, var-dövlətə bu qədər bağlılıq, yalnız maddi dünyanın adamı olmaq cəmiyyətimizi hara aparar? Akademik Ramiz Mehdiyev bu məsələdən bəhs edərkən deyir: "Heç bir sosioloji sorğu aparmadan qətiyyətlə demək olar ki, orta statistik Azərbaycan gənci bu gün arzusundadır ki, onun gözəl evi, bərbəzəkli maşını və kifayət qədər pulu osun. O, həyatın mənasını ancaq əylənməkdə görür. Bütün bunlara nail olmaq üçün o, min bir vasitəyə əl atmağa, o cümlədən qanunu və əxlaq normalarını da aşmağa hazırdır. Zəhmət çəkməyi, çalışmağı, əziyyətə qatlaşmağı o, ümumiyyətlə istəmir."

Hörmətli Ramiz Mehdiyev bu məqamda həm dövlət məmuru, həm də müdrik ziyalı kimi gənclərimizə məsləhətlərini çatdırır, onlara insan mənəviyyatına zərər verə biləcək fikirlərdən uzaq durmağı, əməksevər, mərd, qürurlu olmağı tövsiyə edir.

Akademik R.Mehdiyev bəzi gənclərin yüksək məvacibə görə Suriyaya gedib "İslam dövləti" uğrunda mübarizəyə qoşulması hallarını pisləyir, bundan narahat olduğunu bildirir: "Azərbaycandan bəzi cavanların "islam dövləti" uğrunda mübarizəyə cəlb edilməsi və Suriyaya getməsi bizi narahat edir. Aydındır ki, külli miqdarda verilən məvaciblə kimisə şirnikləndirib vətənindən, ailəsindən ayıraraq uzaq Suriyaya göndərmək mümkündür. Lakin bu prosesi təkcə iqtisadi amil ilə əlaqələndirmək də ən azı sadəlövhlük olardı."

Akademik R.Mehdiyev qeyd edir: "Nə baş verir" sualına biz ilk növbədə ona görə cavab tapa bilmirik ki, cəmiyyətdə cərəyan edən proseslər haqqında əlimizdə doğlun elmi məlumat yoxdur. Mən də bir müəllim kimi belə düşünürəm ki, bu suala hamımız birlikdə cavab axtarmalı və tapmalıyıq.

Akademik Ramiz Mehdiyevin Dövlət İdarəçilik Akademiyasında etdiyi bu çıxış bu günümüz və gələcəyimiz üçün mühüm əhəmiyyət kəsb edir. Yüksək vəzifəli dövlət məmurunun dilindən bu cür problemlərin qeyd edilməsi, dövlət səviyyəsində bunun həlli yollarının axtarılması sevindirici haldır. Mənə elə gəlir, bu səsə hamılıqla səs verməliyik. Bütün neqativ halların aradan qaldırılması, cəmiyyəti narahat edən problemlərin həlli üçün birlikdə çalışmalı, qətiyyət nümayiş etdirməliyik. Burada hallanan bir sual məni daha çox düşündürür: "Mənəvi dəyərlərimizin məruz qaldığı belə bir aşınmanın qarşısını biz nə ilə ala bilərik?"

Bəli, hər birimiz bu ölkənin vətəndaşıyıq. Bu cəmiyyətdə yaşayan hər kəs bu sual ətrafında ciddi düşünməli, ona dürüst cavab tapmalı, göstərilən nöqsanların aradan qaldırılmasına imkanı dərəcəsində kömək göstərməli, gələcək həyatımızın işıqlı inkişafı yolunda fədakarlıq nümayiş etdirməlidir.

Mən bu çıxışla bağlı münasibətimi hörmətli akademik Ramiz Mehdiyevin bir fikri ilə tamamlamaq istəyirəm: "Mən istərdim ki, bütün bu suallara biz sizinlə birlikdə cavab axtarıb tapaq. İlk növbədə ona görə ki, bu cavablar Azərbaycanın sabahkı inkişafını şərtləndirən və müəyyən edən taleyüklü məsələlərlə bağlıdır."

Zaur ƏSGƏROV,
T.İsmayılov adına Mirqurbanlı kənd tam orta məktəbinin müəllimi

12 noyabr — Milli Konstitusiya Günüdür

ƏSAS QANUNUMUZ

Hər bir cəmiyyət ilk növbədə qanunlarla tənzimlənir, qanunlarla idarə olunur. Hər bir cəmiyyətin taleyini, aqibətini də elə bu qanunlar həll edir. Qanunların ən alisi isə ümumxalq müzakirəsindən keçirilərək qəbul olunan Əsas Qanun — Konstitusiyadır. Bu mənada hər bir dövlət, hər bir xalq üçün onun Əsas Qanununun, Konstitusiyasının müəyyənləşdirilib qəbul edilməsi taleyüklü məsələ hesab olunur. Xalqımızın, millətimizin bəxti onda gətirdi ki, bizim Əsas Qanunumuzun, Milli Konstitusiyamızın banisi, memarı zəngin dövlətçilik və idarəçilik təcrübəsinə malik Ümummilli Lider Heydər Əliyev oldu, bu qanunları əvvəldən Ulu Öndərimiz müəyyənləşdirib formalaşdırdı. Belə olmasaydı biz müstəqilliyimizi qoruyub saxlaya bilməz, müasir dünyaya müvəffəqiyyətlə inteqrasiya olunmağı bacarmazdıq.

Sovet dövründə Azərbaycanın milli mənafeyindən doğan və milli mənafeyinə xidmət edən müstəqil Konstitusiyası yox idi, başqa müttəfiq respublikalar kimi Azərbaycan da sovet qanunları ilə idarə olunurdu, onun Konstitusiyası bu qanunlara uyğun şəkildə müəyyənləşdirilmişdi. Ölkəmiz müstəqillik əldə etdikdən sonra cəmiyyətdə sabitlik yaranması, ölkədəki hərc-mərcliyə, özbaşınalığa birdəfəlik son qoyulması üçün ilk növbədə bu mühüm məsələ həll olunmalı, vaxt itirmədən özümüzün milli mənafeyimizdən doğan və müasir dünyanın tələblərinə cavab verən Əsas Qanunumuz, Milli Konstitusiyamız işlənib hazırlanmalı, qəbul edilməli idi. Bu zərurəti ilk dəfə məhz Ümummilli Lider Heydər Əliyev hiss etdi və təkidli şəkildə yubanmadan Milli Konstitusiyamızın işlənib hazırlanması tələbini irəli sürdü.

1995-ci ilin iyun ayında Ulu Öndərimizin rəhbərliyi altında müstəqil ölkəmizin Konstitusiyasını hazırlayan xüsusi Dövlət Komissiyası yaradıldı. Bu komissiyanın tərkibinə təcrübəli mütəxəssislər, alimlər, hüquqşünaslar, rəhbər işçilər daxil edildi. Həmin komissiya aylarla gərgin iş apardı, Konstitusiyamızın hər bir bəndinin, hər bir maddəsinin müəyyənləşdirilməsi, dəqiqləşdirilməsi üçün ciddi müzakirələr keçirdi. Ulu Öndər Heydər Əliyev bu müzakirələrdə çox fəal iştirak edir, hər bir maddədəki səhv fikrə, səhv istiqamətə qarşı kəskin etirazını bildirir, özünün düzəlişlərini edirdi. Buna görə Əsas Qanunumuzun bünövrəsi əvvəldən düzgün atıldı, müasir dünyanın tələblərinə hərtərəfli cavab verən mükəmməl bir Konstitusiya layihəsi hazırlandı.

Nəhayət, hazırlanan layihə ümumxalq səsverməsinə çıxarıldı. 1995-ci il noyabr ayının 12-də müstəqil Azərbaycan Respublikasının 5 bölmədən, 12 fəsildən, 158 maddədən ibarət olan milli Konstitusiyası ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edildi. Bu Konstitusiyanın 48 maddəsi bilavasitə insan hüquq və azadlıqlarını, onların vəzifələrini ehtiva edirdi. Bu, Əsas Qanunumuzun demokratikliyini bir daha təsdiqləyirdi.

İlk milli Konstitusiyamızın qəbulundan sonra ölkəmizdəki hərc-mərcliyə birdəfəlik son qoyuldu, hüquqi dövlət quruculuğu istiqamətində geniş, hərtərəfli tədbirlər həyata keçirilməyə başlandı. İctimai həyatımızın ayrı-ayrı sahələrini tənzimləyən "Məhkəmələr və hakimlər haqqında", "Konstitusiya məhkəməsi haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Pensiya haqqında" və digər qanunlar qəbul olundu, üçpilləli məhkəmə sistemi, Ombudsman təsisatı yaradıldı, yeni Seçki Məcəlləsi, digər hüquqi aktlar həyata vəsiqə aldı. Bütün bunlar ölkədə hüquqi demokratik dövlət quruculuğu yolunda çox mühüm əhəmiyyət kəsb edən məsələlər idi. Məhz ölkəmizdə hüquqi dövlət quruculuğu istiqamətində həyta keçirilən ardıcıl tədbirlərin nəticəsi olaraq Azərbaycan çox keçmədən Avropa Şurası kimi nüfuzlu beynəlxalq qurumun üzvlüyünə qəbul olundu, insan hüquq və azadlıqlarının qorunmasına xidmət edən bir sıra konvensiyalara qoşuldu, bununla bağlı üzərinə öhdəliklər götürdü. Bütün bunlar isə Konstitusiyamıza bir sıra zəruri əlavə və dəyişikliklərin edilməsini tələb edirdi. Buna görə də 2002-ci il avqustun 24-də keçirilən ümumxalq səsverməsi (referendum) yolu ilə Konstitusiyamızda həmin zəruri əlavə və dəyişikliklər aparıldı.

Ancaq həyat heç vaxt bir yerdə dayanmır, daim irəli gedir, cəmiyyəti idarə edən qanunlarda vaxtaşırı zəruri dəyişikliklərin aparılmasını qaçılmaz edir. Ölkəmizdə gedən sürətli iqtisadi inkişaf, demokratiyanın durmadan genişlənməsi və digər bu kimi amillər müəyyən dövrdən sonra Konstitusiyamızda yenidən dəyişikliklər edilməsi zərurətini ortaya çıxardı. Bu zərurətə görə də "Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklərin edilməsi haqqında" Referendum Aktı işlənib hazırlandı. Həmin layihədə Konstitusiyanın 29 maddəsinə əlavə və düzəlişlər edilməsi nəzərdə tutulurdu. 2009-cu il mart ayının 18-də keçirilən ümumxalq səsverməsində (referendumda) xalq bütün bu əlavə və düzəlişlərə "hə" deyərək Konstitusiyamızı daha da təkmilləşdirdi.

Bu gün biz möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında banisi və memarı Ulu Öndər Heydər Əliyev olan Milli Konstitusiyamızın qanunları ilə yaşayır, işləyir və birbirindən parlaq qələbələr əldə edirik. Nə qədər ki bu qanunlar bizimlədir, nə qədər ki üçrəngli bayrağımız başımızın üzərində əzəmətlə dalğalanır, nə qədər ki möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında yaşayır və işləyirik, həyatımızdan, bu günümüzdən və sabahımızdan tamamilə arxayınıq. Ona görə arxayınıq ki, qanunlarımızın aliliyinə, Prezidentimizin qüdrətinə ürəkdən inanırıq, hər işimizdə onlara bel bağlayırıq, onlara arxayın oluruq.

Zəfər NAĞIYEV,
DSMF Neftçala rayon şöbəsinin müdiri

22 noyabr — Ədliyyə İşçilərinin Peşə Bayramı Günüdür

APARILAN İSLAHATLAR BU MÜHÜM SAHƏNİ DURMADAN TƏKMİLLƏŞDİRİR

İctimai həyatımızın digər sahələri kimi insan hüquq və azadlıqlarının keşiyində dayanan ədliyyə sisteminin inkişafı, yenidən qurulması da Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Çətin və keşməkeşli yol keçən Ədliyyə Nazirliyi sovet hakimiyyəti dövründə bir neçə dəfə ləğv edilərək yenidən yaradılsa da, onun əsaslı şəkildə təsis edilməsi, yaradılması Umummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edir. Ulu Öndərin ədliyyə sisteminə qayğı və diqqəti ölkəmizin müstəqilliyi illərində xüsusilə geniş şəkil almış, köklü məhkəmə-hüquq islahatları çərçivəsində nazirliyin hüquqi dövlətdə rolu və yeri dəqiq müəyyənləşdirilmişdir.

Həyatımızın ən çətin dövründə — 1993-cü ilin iyununda xalqının, millətinin təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan möhtərəm Heydər Əliyevin ölkədə ictimai-siyasi sabitliyin, qanunçuluğun, hüquq qaydalarının qorunması və möhkəmləndirilməsi üçün göstərdiyi qətiyyət, prinsipiallıq onun müdriklik əzmindən qaynaqlanırdı. Məhz bu dahi insanın qətiyyəti, möhkəm iradəsi, uzaqgörənliyi sayəsində ölkədə sabitlik yaradılmış, hər bir fərdin azad, təhlükəsiz yaşaması, Azərbaycanın dünyaya inteqrasiyası üçün yeni Qanunlar Toplusu işlənib hazırlanmışdır. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi — referendum yolu ilə Azərbaycan Respublikasının Konstitusiyasının qəbulu bunun əyani nümunəsi idi. Bu bir daha əyani şəkildə bütün dünyaya sübut etdi ki, müstəqil ölkəmiz hüquqi-demokratik dövlət quruculuğu yolunda inamla addımlayır və bu yoldan dönməyəcəkdir.

Həyat bunu bir daha təsdiqlədi. İllər keçdikcə qəbul olunan törəmə qanunların kökündə, mayasında da insan amili, onun şəxsiyyətinə hörmət dayanırdı. Ölkəmizdə əfvetmə institutunun bərpa olunması, ölüm hökmü üzərində moratoriumun qoyulması, 1998-ci ildən bu hökmün birdəfəlik ləğv edilməsi, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) İnstitutunun yaradılması, hüquq-mühafizə, ədliyyə orqanlarında dövrün tələblərinə cavab verən islahatların aparılması, məhkəmələrin müstəqilliyinin təmin edilməsi, hakimlərin test üsulu ilə seçilməsi Ümummilli Lider Heydər Əliyevin ardıcıl səyləri sayəsində mümkün olmuşdur.

Ulu Öndər hüquq-mühafizə orqanlarında, insan hüquq və azadlıqlarının qorunmasında xüsusi rolu və yeri olan ədliyyə sisteminin tamamilə yenidən qurulmasına, bu sahədə çalışanlara həmişə diqqətlə yanaşırdı. Azərbaycan Xalq Cümhuriyyətinin Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi günü əsas götürən möhtərəm Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli fərmanı ilə 22 noyabrı Ədliyyə İşçilərinin Peşə Bayramı Günü kimi təsis etməsi bu diqqətin bariz nümunəsidir. O vaxtdan başlayaraq hər il özlərinin peşə bayramlarını ümumi sevinc içində qeyd edən ədliyyə işçilərinin həmin gün ilk öncə onların həyatında çox mühüm rol oynayan Umummilli Liderin abidəsini ziyarət etmələri, bu dahi insana özlərinin dərin hörmət və ehtiramlarını bildirmələri də bununla bağlıdır.

Ulu Öndərin zəfər yoluna sadiq qalan, bu yolu böyük uğurla davam etdirən Prezident İlham Əliyevin on bir illik çoşqun fəaliyyəti dövründə hüquq mühafizə orqanlarının, o cümlədən ədliyyə sisteminin inkişafı özünün yeni mərhələsinə daxil olmuşdur. 2004-cü ildə Azərbaycan-Avropa Şurası birgə işçi qruplarının yaradılması, onun tərkibinə ən nüfuzlu beynəlxalq ekspertlərin daxil edilməsi çoxşaxəli fəaliyyət planının işlənib hazırlaması ilə nəticələnmişdir. Həmin dövrdə "Məhkəmələr və hakimlər haqqında" qanunun əsaslı şəkildə yenidən işlənməsi, "Məhkəmə-Hüquq Şurası haqqında" yeni qanunun, "Hakimlərin Seçki Komitəsi haqqında" Əsasnamənin, "Hakimlərin Etik Davranış Kodeksi"nin və həyati əhəmiyyət daşıyan digər vacib sənədlərin qəbul olunması nəzərdə tutulmuş tədbirlərin uğurla həyata keçirilməsində çox mühüm rol oynamışdır.

Tərkib hissəsinin əsasən hakimlərdən, eyni zamanda ölkə Prezidentinin, Milli Məclisin, prokurorluğun, Vəkillər Kollegiyasının nümayəndələrinin təşkil etdiyi Məhkəmə-Hüquq Şurasının yaradılması xüsusilə önəmli xarakter daşıdı. Hakimlərin fəaliyyətinə qiymət verilməsi, vəzifədə irəli çəkilməsi, intizam məsuliyyətinə cəlb edilməsi və onların fəaliyyəti ilə bağlı digər məsələlər bu qurumun səlahiyyətlərinə daxil olan əsas vəzifələr idi.

Prezident İlham Əliyevin siyasətində regionların inkişafının diqqətdə saxlanılması burada yaşayan əhalinin hüquqlarının qorunmasına, ədliyyə xidmətinin yaxşılaşdırılmasına da öz müsbət təsirini göstərmişdir. Dövlət başçısının 19 yanvar 2006-cı il tarixli "Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə"ki fərmanı bu cəhətdən müstəsna əhəmiyyət kəsb etmişdir. Məhz bu ali dövlət sənədindən sonra hakimlərin seçilməsi Hakimlərin Seçki Komitəsi tərəfindən həyata keçirilməyə başlanmışdır. Bu isə məhkəmə hakimiyyətinin nüfuzuna və müstəqil təsisat kimi formalaşmasına, təşəkkül tapmasına öz müsbət təsirini göstərmişdir.

Məhkəmə-hüquq islahatlarının həyata keçirilməsi istiqamətində atılmış mühüm addımlardan biri də "Məhkəmələr və hakimlər haqqında" qanuna 22 iyun 2010-cu il tarixli dəyişikliklərlə bağlıdır. Daha sonra dövlət başçısı 15 iyul və 9 avqust 2010-cu il tarixli fərmanlarını imzaladı. Bu fərmanların əsasında da ədalət mühakiməsinin səmərəliliyinin artırılması dururdu. Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının Məhkəməsi əsasında Bakı Ağır Cinayətlər Məhkəməsinin, Lənkəran, Gəncə, Şəki ağır cinayətlər məhkəmələrinin yaradılması bunu bir daha əyani şəkildə sübut etdi.

Məhkəmə-hüquq islahatlarında əhəmiyyətli sayıla biləcək hadisələrdən biri də ölkə başçısı cənab İlham Əliyevin 27 dekabr 2011-ci il tarixdə imzaladığı "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının təsdiq edilməsi haqqında"kı sərəncamıdır. Sərəncam dövrün tələbləri, məhkəmə-hüquq islahatlarının sürətli və keyfiyyətli həyata keçirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması, cəmiyyətdə hüquq mədəniyyətinin inkişaf etdirilməsi, normativ hüquq bazasının və hüquq müdafiə sisteminin təkmilləşdirilməsi baxımından çox böyük əhəmiyyət kəsb edir. İnsan hüquqlarının müdafiəsini tənzimləyən beynəlxalq sənədlərin müddəalarının respublikanın məhkəmələri tərəfindən tətbiqi üzrə araşdırma və tədqiqatların aparılmasının, xüsusilə, İnsan hüquqlarına dair Avropa Konvensiyasının məhkəmə aparatı işçiləri tərəfindən öyrənilməsinin təmin edilməsi məhz bununla bağlıdır.

Ölkəmizdə genişmiqyaslı məhkəmə-hüquq islahatlarının aparılması, Ədliyyə Nazirliyinin həyata keçirdiyi "Ədliyyə sisteminin müasirləşdirilməsi" layihəsi, ən başlıcası möhtərəm Prezidentimiz cənab İlham Əliyevin bu mühüm sahənin inkişafı, tamamilə yenidən qurulması üçün gördüyü ardıcıl tədbirlər respublikanın regionlarında yerləşən rayon məhkəmələrinin təkmilləşməsinə, müasirləşməsinə də öz müsbət təsirini göstərir. Son illər bunu çalışdığımız Neftçala rayon məhkəməsinin timsalında da aydın şəkildə görürük. Məhkəmədə iş şəraitinin əvvəlki illərlə müqayisədə xeyli dərəcədə yaxşılaşması, lazımi avadanlıqlarla təminat, savadlı, təcrübəli hakimlər hesabına kadr potensialımızın möhkəmlənməsi və həyata keçirilən digər tədbirlər rayon əhalisinə göstərilən hüquqi xidmətin səviyyəsinin yüksəlməsinə, məhkəməyə daxil olan işlərə daha operativ qaydada baxılmasına öz müsbət təsirini göstərir. Buna isə biz yalnız dövlət başçısının qayğı və diqqəti sayəsində nail oluruq. Ona görə əməkdaşlarımız da qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi, rayon əhalisinə göstərilən hüquqi xidmətin yaxşılaşdırılması üçün səylərini əsirgəmirlər.

Elməddin İBRAHİMOV,
rayon məhkəməsinin sədri

Millətin dirçəliş günü

Şərin xeyir üzərində müvəqqəti üstünlüyü, hətta o üstünlüyün millətlərə "qələbə" kimi təqdim olunması uzun çəkə bilər, amma heç bir vaxt əbədi ola bilməz. Ötən əsrin sonlarına yaxın 70 illik tarixi olan qırmızı imperiya da beləcə özünün süqut dövrünü yaşamaqda idi. Artıq yetmişinci illərdə "kommunizm" sözü "inkişaf etmiş sosializm" sözü ilə əvəz olunmuş, daha sonralar isə bədnam Qorbaçovun "yenidənqurma" ideyası ortaya çıxmışdı. Bu elə bir dövr idi ki, artıq imperiya boyunduruğu altında yaşayan xalqlar aldadıldıqlarını başa düşmüşdülər, ömrünü zorla uzatmaq istəyən, əslində çökməkdə olan sovet rejimindən yaxa qurtarmağa çalışırdılar. Dağılmaqda olan köhnə sistem "demokratiya" pərdəsi altında pərdələnir, nə etdiyini bilmirdi. Qorbaçov demokratiyası hamının deyildi, o birmənalı şəkildə ermənilərin Qarabağ iddiasını dəstəkləyirdi, Azərbaycana isə arxa çevirmişdi.

Bunu dərk edən Azərbaycan xalqı bir yumruq kimi birləşərək ayağa qalxdı. 1988-ci il noyabrın 17-də Bakının məşhur Lenin meydanı sözün əsl mənasında Azadlıq meydanına çevrildi. Xalq özünün 70 il tapdanan haqqının və torpağının uğrunda milli azadlıq hərəkatına başladı. Bir milyonluq kütlə haqsız, ədalətsiz quruluşa, təslimçi imperiya məmurlarına, təslimçi respublika rəhbərliyinə kəskin etiraz nümayiş etdirdilər. Xalqın yetmiş il mürgüləməyə məhkum olunmuş milli şüuru, milli birliyi özünün monolit iradəsini ortaya qoydu. Doğrudur, sonralar bu mitinq dağıdıldı, 20 yanvar qırğını törədildi, amma xalqımızın iradəsi yenə də sarsılmadı. Ədalətsiz müharibə, xaos, hərc-mərclik... Bütün bunlara xalqımızın böyük oğlu, Ümummilli Lider Heydər Əliyev son qoydu: "Azərbaycanın milli müstəqilliyi dönməzdir, əbədidir, sarsılmazdır!" dedi. Xalqımızın 17 noyabr arzularını reallığa məhz Ulu Öndər çevirdi, şanlı, işıqlı gələcəyə gedən yolu öz millətinə göstərdi!

Fərhad AĞAYEV

Sahibkarlara kömək diqqət mərkəzindədir

İŞGÜZAR FORUM

Bu gün ölkəmizdə dövlət sektoru ilə yanaşı özəl sektor da böyük sürətlə inkişaf edərək uğurlar qazanır. Əhalinin yeni iş yerlərilə təmin olunmasında, insanların müxtəlif məhsullara və xidmətlərə olan tələbatlarının ödənilməsində sahibkarlar da fəal iştirak edirlər. Bunu nəzərə alaraq dövlət daim onlara dəstək olur, bununla əlaqədar ardıcıl tədbirlər həyata keçirir.

Bu günlərdə İqtisadiyyat və Sənaye Nazirliyi Sahikarlığa Kömək Milli Fondunun sahibkarlığın güzəştli kreditləşməsi məsələlərinə dair rayonumuzun Xıllı qəsəbəsində keçirdiyi növbəti işgüzar forumu da bu məsələyə həsr olunmuşdu.

Forumu rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev açaraq ölkəmizdə sahibkarlığın inkişafı, bununla bağlı rayonumuzda həyata keçirilən tədbirlər barədə geniş məlumat vermişdir.

İşgüzar forumda sahibkarlara güzəştli kreditlərin alınması mexanizmi barədə ətraflı məlumat verilmiş, Neftçala və ətraf rayonlarda həyata keçirilməsi məqsədəuyğun hesab olunan nümunəvi layihələr təqdim olunmuş, sahibkar-müvəkkil kredit təşkilatı münasibətlərinin möhkəmləndirilməsi istiqamətində müzakirələr aparılmış,

sahibkarların investisiya layihələri güzəştli qaydada maliyyələşdirilmişdir.

80-ə yaxın sahibkarın iştirak etdiyi forum çərçivəsində Neftçala rayonunun iqtisadi potensialının reallaşdırılması məqsədilə prioritet hesab olunan 50 başlıq südlük istiqamətli müasir ailə fermer təsərrüfatlarının, fermer mağazalarının, çörək, plastik qapı-pəncərə və üzlük daş istehsalı müəssisələrinin yaradılması üzrə nümunəvi investisiya layihələrinin təqdimatı keçirilmiş, kiçik həcmli investisiya layihələrinin ümumi dəyərinin 100%-dək hissəsinin dövlətin güzəştli kreditləri hesabına maliyyələşdiriləcəyi bildirilmiş, sahibkarlara nümunəvi layihələr və metodiki materiallar paylanmışdır.

Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru Şirzad Abdullayev bildirmişdir ki, indiyədək Aran iqtisadi rayonunda fəaliyyət göstərən sahib-

karlıq subyektlərinin 9025 investisiya layihəsinin maliyyələşdirilməsinə 402,8 milyon manat güzəştli kredit verilmiş, digər sahələrlə yanaşı, müasir texnologiyaların tətbiqinə əsaslanan logistika mərkəzlərinin, üzümçülük, intensiv bağçılıq, istixana təsərrüfatlarının, ət, süd, meyvə-tərəvəz emalı, quşçuluq fabrikləri, quru meyvə, tikinti materialları istehsalı müəssisələrinin yaradılması və s. sahələr üzrə investisiya layihələri maliyyələşdirilmiş, 32 minə yaxın yeni iş yerinin açılması imkanı yaradılmışdır.

İşgüzar forum çərçivəsində Neftçala və ətraf rayonlardan olan 51 sahibkara 2,8 milyon manat güzəştli kredit verilmişdir. Verilmiş kreditlər əsasən, heyvandarlıq, quşçuluq, bağçılıq, tərəvəzçilik, çörək istehsalı və s. sahələrin inkişafına yönəldiləcək. Bu kreditlərin reallaşdırılması hesabına 100-ə yaxın yeni iş yerinin açılması mümkün olacaq. Ümumilikdə, 2014-cü ilin ötən dövrü ərzində respublika üzrə 4611 sahibkara 248,6 milyon manat güzəştli kredit verilmişdir ki, bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması 10200-dən çox yeni iş yerinin yaradılmasına imkan verir.

Forum çərçivəsində Neftçala rayonunun Həsənabad qəsəbəsində güzəştli kredit ayrılmış şüşə istehsalı müəssisəsinin və Salyan rayonunun Çuxanlı kəndində quşçuluq təsərrüfatının fəaliyyətinə baxış keçirilmişdir.

"Dağlıq Qarabağ: məxəzlərdən oxunmuş tarix" kitabı çox qiymətli mənbədir

Ötən dövrlərdə tariximizin düzgün, obyektiv araşdırılmaması sonrakı dövrlər üçün bir sıra problemlərin, boşluqların yaranmasına səbəb olmuşdur. Tariximizi saxtalaşdırmağa, əsl həqiqətləri ört-basdır etməyə çalışanlar da məhz bu boşluqlardan yararlanmış, ayrı-ayrı məsələləri özlərinə sərf edən qaydada qələmə verməyə səy göstərmişlər. Amma tarix saxtakarlığı, saxtakarları heç vaxt qəbul etmir. Haqq, ədalət nə vaxtsa öz yerini alır.

Həyatı saxtalaşdırmağın, ağa qara deməyin ustası olan erməni tarixçiləri də Vətənimizin ayrılmaz parçası olan Dağlıq Qarabağı özününküləşdirmək üçün dəridən-qabıqdan çıxmışlar. Ancaq fakt faktlığında qalır. Azərbaycanın dünya şöhrətli alimləri öz sözlərini deyir, əsl həqiqəti açıb ortaya qoya bilirlər. Akademik Ramiz Mehdiyevin "Dağlıq Qarabağ: məxəzlərdən oxunmuş tarix" kitabı bu cəhətdən çox qiymətlidir. Neçə-neçə samballı, dəyərli kitabların müəllifi olan akademik Ramiz Mehdiyevin bu kitabı da çox qiymətlidir. Əsərdə Azərbaycanın Dağlıq Qarabağ regionunun tarixi, o cümlədən bu regionla bağlı münaqişənin kökləri dərindən araşdırılır, tutarlı faktlar, dəlillər əsasında təhlil olunur.

Azərbaycanın bu qədim regionu ilə bağlı tarixi faktların əsərdə xronoloji ardıcıllıqla verilməsi diqqəti çəkən məqamlardandır. Kitabda erməni etnogenezi, azərbaycanlıların antropologiyası, ermənilərin Cənubi Qafqaza miqrasiyası, Azərbaycan xanlıqları, sovet dövründə Dağlıq Qarabağın statusu və digər mühüm məsələlər barədə geniş məlumat verilir. Bununla yanaşı oxucu son illər ermənilər tərəfindən işğal olunmuş torpaqlarımız barədə də geniş məlumat əldə edə bilir, indiyədək müəmmalı görünən bir çox mətləblər onun üçün aydınlaşır. Tutarlı faktlara əsaslanan müəllif yazır ki, milli dövlət modelinə malik Azərbaycandan fərqli olaraq



Ermənistan rəhbərliyinin ideokrativ siyasi sistemi həyata keçirmək kursu öz xalqını və dövlətini fəlakətə aparır. Ölkədəki ağır sosial-iqtisadi durum, demoqrafik vəziyyətin gündən-günə pisləşməsi bunu bir daha əyani şəkildə göstərir. Belə vəziyyətdə "böyük Ermənistan" xülyası ilə yaşayan ermənilərin Naxçıvan torpaqlarına olan iddiaları xüsusilə gülünc görünür. Bununla bağlı müəllifin gətirdiyi tutarlı faktlar Naxçıvanın qədim Azərbaycan torpağı olduğuna bir daha dərin inam yaradır.

Kitabın üstün cəhətlərindən biri də onun rus dilində yazılmasıdır. Məlumdur ki, bu gün rus dili dünya xalqlarının ən çox müraciət etdikləri dillərdəndir. Nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən BMT rus dilindən geniş şəkildə istifadə edir. Bu isə Vətənimizin ayrılmaz parçası olan Dağlıq Qarabağla bağlı qiymətli məlumatların, tutarlı faktların toplandığı bu əsərin dəyərini, əhəmiyyətini daha da artırır. Kitabdakı zəngin məlumatlarla yaxından tanışlıq rus dilli oxucularda Azərbaycan həqiqətləri barədə geniş təsəvvür yaradır.

Son vaxtlar bu qiymətli əsərin ayrı-ayrı təşkilatlardakı geniş müzakirələri də böyük maraq doğurur. Müzakirələr zamanı kitabın əhəmiyyəti, dəyəri barədə maraqlı fikirlər səslənməklə yanaşı onun orta və ali məktəblərdə dərslik kimi istifadə olunmasının tövsiyə edilməsi də təsadüfi deyil. Müəllim olduğumdan bu fikirləri mən də müdafiə edirəm. Akademik Ramiz Mehdiyevin tarixi faktlarla zəngin olan "Dağlıq Qarabağ: məxəzlərdən oxunmuş tarix" kitabı istər orta məktəblərin şagirdləri, istərsə də ali məktəblərin tələbələri üçün həqiqətən çox qiymətli mənbə ola bilər. Ona görə müəllimlər yeri gəldikcə bu kitabdan geniş şəkildə istifadə etməli, gənc nəslin Dağlıq Qarabağla bağlı məlumatlarını daha da zənginləşdirməlidirlər.

Tükəzban HƏSƏNOVA,
Xıllı qəsəbə 2 saylı tam orta məktəbinin müəllimi

Uşaq hüquqları aylığı

1989-cu il noyabrın 20-də BMT-nin Uşaq Hüquqları Konvensiyasını qəbul etməsi yetişməkdə olan gənc nəslə qarşı diqqətin xeyli dərəcədə artırılmasına, genişlənməsinə səbəb oldu. Ölkəmizin dövlət müstəqilliyini bərpa etdikdən cəmi bir il sonra bu mühüm sənədi qəbul etməsi də bununla bağlı idi. Həmin sənədə əsasən digər ölkələr kimi Azərbaycan da üzərinə çox ciddi öhdəliklər götürmüşdür və bu öhdəliklərin yerinə yetirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

Şübhəsiz, rayonumuz da bu işlərdən kənarda qala bilməz. Burada da uşaq hüquqlarının təbliği, bu hüquqların təmin olunması və müdafiəsi istiqamətində səmərəli işlər görülür. Oktyabrın 20-dən noyabrın 20-dək davam edəcək "Uşaq hüquqları aylığı"nın keçirilməsi ilə bağlı rayon icra hakimiyyətində hazırlanmış geniş tədbirlər planı müvafiq idarə və müəssisələrə göndərildikdən sonra həmin təşkilatlarda bu tədbirlərin icrasına başlanılmışdır. Rayon təhsil şöbəsində görülən işlər xüsusilə genişdir. BMT-nin Uşaq Hüquqları Konvensiyasının qəbul edilməsi, ölkəmizin bu konvensiyaya qoşulmasının əhəmiyyəti və digər məsələlər təhsil müəssisələrində keçirilən konfransların, seminarların, disputların əsas məzmununu təşkil etmişdir. Bununla bağlı keçirilən açıq dərslər, maarifləndirmə tədbirləri də uşaqların ürəyindən olmuş, onlara konvensiyanın maddələri və müdəaları hərtərəfli izah edilmişdir. Bir çox hallarda bu tədbirlərin rayon mədəniyyət və turizm şöbəsi ilə, şöbənin yerlərdəki obyetləri ilə birlikdə keçirilməsi onların təsirini və əhatəliliyini daha da artırmışdır. Rayon mərkəzi xəstəxanası, rayon gənclər və idman idarəsi isə keçirilən aylıqda yaxından iştirak etməklə yanaşı, həm də məktəblilərin sağlamlıqlarının qorunması, sağlam həyat tərzinin təbliği istiqamətində fəal iş aparmış, bununla bağlı maraqlı tədbirlər təşkil etmişlər. Belə tədbirlərdə bir sıra zərərli vərdişlərin təkcə böyüklər arasında deyil, uşaqlar arasında da xoşagəlməz hallara gətirib çıxarması qeyd olunmuşdur.

"Uşaq hüquqları aylığı" davam edir. Qarşıdakı günlərdə də konvensiyanın tələblərindən irəli gələn tədbirlər ön plana çəkilməklə yanaşı ölkəmizdə uşaq hüquqlarının təmin olunmasına xidmət edən qanunvericilik bazasının yaradılması və bu sahədə aparılan islahatlar da diqqətə çatdırılacaqdır.

Bələdiyyə seçkiləri qarşısında

"Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq Neftçala rayonunda 23 dekabr 2014-cü il tarixdə keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar müəyyən edilmiş açıq və qapalı yerlər barədə Neftçala Rayonu İcra Hakimiyyəti başçısının 27 oktyabr 2014-cü il tarixli 148 nömrəli sərəncamı ilə təsdiq edilmiş

S İ Y A H I

	Açıq yerlər		Qapalı yerlər		
S/N	Ünvanı	Tutumu (nəfərlə)	S/N	Ünvanı	Tutumu (nəfərlə)
1.	N.Nərimanov adına şəhər stadionu	10000	1.	Neftçala şəhər mədəniyyət evi	300
2.	Həsənabad qəsəbə mədəniyyət evinin qarşısındakı meydan	3000	2.	Həsənabad qəsəbə mədəniyyət evi	150
3.	"Melioservis" ASC-nin qarşısındakı ərazi	3000	3.	Xıllı qəsəbə klubu	100
4.	Boyat kənd mədəniyyət evinin qarşısındakı ərazi	1000	4.	Boyat kənd mədəniyyət evi	300
5.	Aşağı Qaramanlı kənd mədəniyyət evinin qarşısındakı ərazi	3000	5.	Aşağı Qaramanlı kənd mədəniyyət evi	300
6.	Qədimkənd bələdiyyəsinin binası qarşısındakı ərazi	1000	6.	Qədimkənd bələdiyyəsinin binası	50
7.	Aşağı Surra kənd mədəniyyət evinin qarşısındakı ərazi	1000	7.	Aşağı Surra kənd mədəniyyət evi	300
8.	Yenikənd kənd mədəniyyət evinin qarşısındakı ərazi	2000	8.	Yenikənd kənd mədəniyyət evi	150
9.	Tatarməhlə kənd mədəniyyət evinin qarşısındakı ərazi	1000	9.	Tatarməhlə kənd mədəniyyət evi	150
10.	Yuxarı Qaramanlı kənd klubunun qarşısındakı ərazi	1500	10.	Yuxarı Qaramanlı kənd klubu	100
11.	Qaraqaşlı kənd klubunun qarşısındakı ərazi	1500	11.	Qaraqaşlı kənd klubu	70
12.	Yeniqışlaq kənd klubunun qarşısındakı ərazi	1500	12.	Yeniqışlaq kənd klubu	100
13.	Xəzər kənd klubunun qarşısındakı ərazi	1000	13.	Xəzər kənd klubu	70
14.	Xol Qarabucaq kənd mədəniyyət evinin qarşısındakı ərazi	2000	14.	Xol Qarabucaq kənd mədəniyyət evi	200
15.	Xol Qaraqaşlı kənd mədəniyyət evinin qarşısındakı ərazi	2000	15.	Xol Qaraqaşlı kənd mədəniyyət evi	200
16.	Qırmızıkənd kənd mədəniyyət evinin qarşısındakı ərazi	2000	16.	Qırmızıkənd kənd mədəniyyət evi	200
17.	Qaçaqkənd kənd mədəniyyət evinin qarşısındakı ərazi	1500	17.	Qaçaqkənd kənd mədəniyyət evi	200

TƏQVİM PLANI FƏALİYYƏTİMİZİN ƏSAS İSTİQAMƏTİDİR

Demokratiya yolu ilə inkişaf edən ölkəmizdə insanların hüquq və azadlıqlarına hörmətlə yanaşılır. Onlar prezident, Milli Məclis, bələdiyyə seçkilərində fəal iştirak etməklə yanaşı, həm də seçilmək hüququna malikdirlər. Bununla bağlı qəbul olunan qanunların daim yeniləşdirilərək təkmilləşdirilməsi bu işlə məşğul olan orqanların — Mərkəzi Seçki Komissiyasının, onun yerlərdəki qurumlarının fəaliyyətinə də öz müsbət təsirini göstərir. Seçkilər hər yerdə demokratik və şəffaf keçirilir, insanlar öz iradələrini ortaya qoya bilirlər.

Ölkəmizdə keçiriləcək növbəti bələdiyyə seçkilərinin vaxtı da açıqlandı. Dekabrın 23-də keçiriləcək bu seçkilərin yüksək səviyyədə təşkil olunması üçün də lazımi tədbirlər görülür. Aşağı seçki komissiya üzvlərinin peşə hazırlığının artırılması, seçki sahəsində bilik, bacarıq və işgüzar vərdişlərin daha da təkmilləşdərilməsi məqsədilə dairə seçki komissiyalarının sədrləri üçün oktyabrın 17-də Mərkəzi Seçki Komissiyasının təşkil etdiyi müşavirə bu cəhətdən çox əhəmiyyətli oldu. Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun, respublika Baş prokurorunun birinci müavini Rüstəm Usubovun, daxili işlər nazirinin müavini Oruc Zalovun, Bakı Apellyasiya Məhkəməsinin sədri İman Nağıyevin, Ali Məhkəmənin Cinayət Kollegiyasının sədri Şahin Yusifovun, Ədliyyə Nazirliyinin bələdiyyələrlə iş mərkəzinin rəis müavini Fazil Məmmədovun ayrı-ayrı mövzularla bağlı çıxışlarını maraqla dinlədik. Bu çıxışlar bir çox məsələlərə aydınlıq gətirdi, bilmədiklərimizi, yenilikləri öyrəndik. Bu müşavirəyə uyğun olaraq yerlərdə dairə seçki komissiyalarının digər üzvləri və məntəqə seçki komissiyalarının sədrləri üçün seçki hüququ üzrə ixtisaslaşdırılmış kursların keçirilməsi də az əhəmiyyət kəsb etmədi.

Mərkəzi Seçki Komissiyası tərəfindən "Azərbaycan Respublikasında bələdiyyə seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim planı" açqlandıqdan sonra vəzifələrimizə xüsusilə geniş aydınlıq gəlmişdir. Burada görəcəyimiz işlər, həyata keçirəcəyimiz tədbirlər əyani şəkildə əks olunmuş-

dur. İlkin olaraq işlərə bələdiyyə üzvlüyünə namizədlərin irəli sürülməsindən başlanmışdır. Sonra bu proses namizədliyin irəli sürülməsinin təsdiq olunub olunmaması barədə əsaslandırılmış qərarın qəbul edilməsi, namizədə və ya onun səlahiyyətli nümayəndəsinə, habelə siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə imza vərəqələrinin verilməsi, namizədin müdafiəsi üçün seçki imzalarının toplanması, səsvermə günündək seçki komissiyalarının iclaslarını müşahidə etmək üçün Mərkəzi Seçki Komissiyasında qeydiyyatdan keçməklə xüsusi imza almaqdan ötrü bu quruma müraciət edilməsi, respublikanın və seçki dairələrinin ərazilərində müşahidə aparılmasına dair ərizələrin Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına təqdim olunması, müşahidəçilərin qeydə alınması, onlara MSK-nın müəyyən etdiyi formada lövhəciklərin verilməsi, seçki rəsmiləri üçün ixtisaslaşdırılmış kursların təşkil olunması və Təqvim planında nəzərdə tutulmuş digər tədbirlərin həyata keçirilməsi ilə davam etdirilir.

Dairəmizin bundan sonrakı fəaliyyətinin əsas istiqamətini də Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi hərəkət və tədbirlərin Təqvim planı təşkil edəcəkdir. Bununla yanaşı biz digər məsələləri, xüsusilə seçici siyahılarının dəqiqləşdirilməsini də unutmuruq. Bilirik ki, seçkinin normal keçirilməsində bu siyahıların böyük rolu var. Onlar dəqiq olanda, hər bir seçici siyahı üzrə öz nömrəsini biləndə heç bir çətinlik yaranmır, o yubanmadan səsini verə bilir. Ona görə biz bildirişlərin öz sahiblərinə — seçicilərə vaxtında çatdırılmasını da daim diqqətdə saxlayacağıq.

Dairəmizin üzvləri, məntəqə seçki komissiyaları indiyə kimi neçə-neçə seçkini uğurla başa çatdırmışlar. Özü də bu seçkiləri təkcə yerli müşahidəçilər deyil, beynəlxalq müşahidəçilər də yaxından izləmiş, fəaliyyətimizi müsbət qiymətləndirmişlər. Ötən illər bizə yaxşı təcrübə verib. Əminəm ki, növbəti bələdiyyə seçkilərini də tam demokratik, şəffaf və ədalətli şəkildə başa çatdıracağıq.

Səkinə İBRAHİMOVA,
61 saylı Neftçala Dairə Seçki Komissiyasının katibi

Qarakənd üzərində vertolyot qəzasından 23 il ötür

XALQ ÖZ QƏHRƏMANLARINI HƏMİŞƏ SEVƏCƏK

Macar xalqının milli qəhrəmanı, dünya şöhrətli macar şairi Şandor Petefinin "Məhəbbət və azadlıq" adlı bir şeiri var:

Məhəbbət və Azadlıq!
De, nə var bundan artıq?
Məhəbbətçün həmişə
Ölümə gedərəm mən, —
Azadlıqçün keçərəm
Hər zaman məhəbbətdən!..

Bu həmin azadlıq duyğusudur ki, min illər boyu insanlar, xalqlar, millətlər ona doğru can atmış, uğrunda saysız-hesabsız qurbanlar vermişlər.

Azadlıq uğrunda zaman-zaman mübarizəyə qalxan, qanına qəltan olsa da öz məsləkindən, amalından əl çəkməyən xalqlardan biri də Azərbaycan xalqıdır. Təsadüfi deyil ki, tərəqqipərvər bəşəriyyət şanlı Spartakdan sonra bəşərin azadlıq tarixinə Babəkin adını yazmışdır.

Ötən əsrin sonlarında dünyanın ən böyük imperiyalarından biri olan SSRİ dağılmağa başladı. İmperiya zəncirindən, "böyük qardaş" boyunduruğundan qurtarmağa çalışan "qardaş" respublikalardan biri də Azərbaycan idi. Bu çox ağrılı və mürəkkəb bir proses idi. Qarı düşmən xalqımızın gözünü qorxutmaq üçün çox qanlı, məkrli planlar hazırlamışdı. Ermənilərin Fələstində yerləşən "ASALA" terror təşkilatı öz qara siyahısına Azərbaycandan iki nəfərin adını xüsusi olaraq daxil etmişdi: respublikanın baş prokuroru İsmət Qayıbov və daxili işlər naziri Məhəmməd Əsədov.

Bu məkrli planı yerinə yetirmək üçün düşmənlər çoxdan fürsət gözləyir, məqam axtarırdılar. Nəhayət, belə bir fürsət tapmağa nail oldular. Azərbaycanın say-seçmə oğulları — İsmət Qayıbov, Məhəmməd Əsədov, Tofiq İsmayılov, Vəli Məmmədov, Qurban Namazəliyev, Osman Mirzəyev, Alı Mustafayev və başqalarının oturduğu hərbi vertolyot Qarabağda, Qarakənd

üzərində düşmənlər tərəfindən vuruldu. Azərbaycan yalnız özünün sərkərdə, alim, mühəndis, jurnalist... oğullarını deyil, həm də bir dəstə alovlu vətənpərvər övladlarını itirdi.

Erməni cəlladları nə etdiklərini çox

gözəl bilirdilər. Azərbaycan Respublikasının dövlət katibi, SSRİ Ali Sovetinin deputatı, akademik Tofiq İsmayılovun Moskvanın ən yüksək tribunasından səslənən qəzəb və nifrət dolu çıxışlarını düşmən unutmamışdı. Özünü "Azərbaycan əsgəri" adlandıran general Məhəmməd Əsədovu da "ASALA" nahaq yerə hədəfə götürməmişdi. Baş prokuror İsmət Qayıbov isə onlara daha qorxulu qüvvə kimi görünürdü. Bu prinsipial insan qanlı düşmənə nifrətini hər dəfə açıq-aşkar nümayiş etdirirdi. O, "sovet prokuroru" sözünün quru, soyuq buzunu çoxdan sındırmış, xalqın bütün təbəqələrinin sevimlisinə çevrilmişdi. Adətən, xalq öz qəhrəmanlarına ölümündən sonra daha yüksək qiymət verir. Amma İsmət Qayıbov bu məhəbbəti sadə insanlarla, darda qalan adamlarla, düşmənlə üz-üzə qalan dinc əhali ilə görüşlərində qazanmışdı. Təsadüfi deyil ki, İsmət Qayıbov və onun silahdaşlarının dəfn mərasimi ümumxalq kədərindən daha uca, daha yüksək düşmənə nifrət mərasiminə çevrilmişdi. Heç bir yuxarı təşkilatdan qərar və göstəriş gözləmədən xalq özünün təhsil ocaqlarında, hətta adi uşaq bağçalarında belə bu qəhrəmanların xatirsəinə guşələr yaratdı, hələ rəssam olmayan həvəskar, gənc məktəbli rəssamlar onların şəkillərini çəkərək bu guşələrdən asdılar...

... Onlar Vətən göylərində, hərbi vertolyotda şəhid oldular. Adları Vətən göylərinə yazıldı, ucalarda parlayan ulduza döndülər. İllər, on illər keçəcək, dünyaya yeni nəsillər gələcək, onlar xoşbəxt günlər yaşayan bütöv, birləşmiş Vətənin vətəndaşı olacaqlar. Və o zaman da xalqımız öz qəhrəman oğulları — İsmət Qayıbov, Tofiq İsmayılov, Məhəmməd Əsədov... kimi vətənpərvərləri ilə fəxr edəcək, Vətəni sevməyi, ulduzlara dönməyi onlardan öyrənəcək.

Zabil PƏRVİZ

Növbəti əfv fərmanı

O GÜN MƏHBUSLAR TƏKCƏ BAYRAMIN DEYİL, HƏM DƏ AZADLIĞIN BÖYÜK SEVİNCİNİ YAŞADILAR

Müstəqillik Günü ərəfəsində — hamının bayram əhvali-ruhiyyəsi ilə yaşadığı bir gündə törətdiyi cinayət əməlinə görə həbsxanalarda cəza çəkən, azadlıq arzusu ilə yaşayan məhbusları yada salmaq, onların günahlarını bağışlayaraq əfv etmək doğrudan da böyük mərhəmətdir. Bunun üçün həqiqətən böyük ürək sahibi olmaq lazımdır. Dövlət başçısı cənab İlham Əliyev Prezidentliyi dövründə 57-ci dəfədir ki, mərhəmət və humanistlik göstərərək əfv sərəncamı imzalayır, məhbuslara azadlıq bəxş edir.

Bu humanist aksiyanın bünövrəsini Ulu Öndər Heydər Əliyev qoymuşdur. Ölkədə əfvetmə institutunun bərpası, Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının yaradılması bu dahi insanın adı ilə bağlıdır. Ulu Öndər eyni zamanda 1998-ci il fevralın 22-də "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində" fərmanını imzalamış, 1998-ci il iyunun 18-də "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nı təsdiq etmiş, "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununun qəbul olunmasında və digər tədbirlərin həyata keçirilməsində çox önəmli rol oynamışdır.

Ötən on bir illik fəaliyyəti dövründə Prezident İlham Əliyev də insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində qətiyyətli addımlar atmış, insanpərvərlik və humanizm prinsiplərini daim önə çəkmişdir. Dövlət başçısının 17 oktyabr 2014-cü il tarixli son sərəncamı da bu prinsiplərə sadiqliyini, hər bir ölkə vətəndaşının Prezidenti olduğunu bir daha təsdiqləyir. Həm də bu prinsiplər təkcə ölkəmizdə deyil, beynəlxalq aləmdə, dünya birliyində də yüksək dəyərləndirilir. Təkcə bir faktı qeyd edək ki, dövlətimizin başçısının sərəncamı ilə son on ildə 35 min 160 nəfərdən çox məhkum cəzasının çəkilməmiş hissəsindən azad edilmişdir. Ötən bu müddətdə 23 əfv sərəncamı inzalanmış, 3 amnistiya aktına imza atılmışdır. Nəticədə 2007-ci ildə 9877, 2009-cu ildə 9564, 2013-cü ildə isə 10040 nəfər məhkum bu amnistiyalardan bəhrələnmişdir.

Prezident İlham Əliyevin 17 oktyabr 2014-cü il tarixli sərəncamı hər birimiz üçün çox əlamətdar olan günə — Müstə-

qillik Gününə təsadüf etdi. Xalqımızın bayram etdiyi həmin gün ərəfəsində daha 84 məhbusun cəzasının çəkilməmiş hissəsindən azad edilməsi həqiqətən unudulmazdır. O gün bu insanlar təkcə bayramın deyil, həm də azadlığın böyük sevincini, fərəhini yaşadılar. Həmin günlərdə televiziya kanallarının əfvetmə ilə bağlı ayrı-ayrı cəzaçəkmə müəssisələrindən hazırladıqları verilişlərə həyəcansız baxmaq olmurdu. Öz azadlıqlarına qovuşan məhbuslar, onların valideynləri və doğmaları belə humanist aksiyaya görə Prezident İlham Əliyevə özlərinin səmimi minnətdarlıqlarını bildirirdilər.

Bütün bunlar bir daha əyani şəkildə göstərir ki, insan hüquq və azadlıqlarının müdafiəsi, ölkə vətəndaşlarının şərəf və ləyaqətlərinin qorunması dövlət başçısının həyata keçirdiyi siyasətin başlıca istiqamətlərini təşkil edir. Mütərəqqi beynəlxalq təşkilatlar da bunu yüksək qiymətləndirirlər. Çox təəssüf ki, "Numan Rights Wateh", "Freedom Nouse", "Amnesty International", Sərhədsiz Repartyorlar və digər təşkilatlar AXCP, "Milli Şura" onların təsiri altında olan QHT-lərin verdikləri yalan və qərəzli məlumatlara istinad edərək həqiqəti əks etdirməyən qərarlar çıxarır, ölkəmizin beynəlxalq aləmdəki imicini aşağılamağa, gözdən salmağa səy göstərirlər.

Amma nahaq yerə. Prezident İlham Əliyevin təsdiqlədiyi "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nın dünyanın nüfuzlu beynəlxalq təşkilatları tərəfindən yüksək qiymətləndirilməsi böhtançıların, fitnə-fəsad törədənlərin çıxardıqları qərarları və digər sənədləri heçə endirir. Təkcə ATƏT kimi böyük nüfuza malik bir təşkilatın söylədiyi "ATƏT Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafı sahəsində atılan addımları, xüsusən də insan hüquq və azadlıqlarının qorunması ilə bağlı qəbul olunmuş Milli Fəaliyyət Planını yüksək qiymətləndirir" rəyi belələrinə çox tutarlı cavabdır.

Prezident İlham Əliyevin 2003-cü il seçkilərində verdiyi vədlər həyatda öz təsdiqini tapdıqca xalqın dövlətimizin başçısına olan inamı, etimadı da durmadan möhkəmlənir. Bu isə xalqla hakimiyyət arasındakı birliyin, vəhdətin mühüm göstəricisidir. İnsanlar bunu humanizm prinsiplərinə sədaqət kimi qiymətləndirir və dəyərləndirirlər.

İmamverdi ZEYNALOV

Təmizlik işləri genişlənir, səliqə-sahman yaradılır

Adətən nəyinsə təzəsini, yenisini quranda köhnəsini unuduruq. Amma bizdə belə deyil. Yaxşı yadımdadır, bir neçə il bundan qabaq rayonumuzda ilk təmizlik işlərinə mərkəzi bazardan başlanmışdı. Buradakı natəmizlik, antisanitar vəziyyət çoxlarını narahat etsə də, illərlə vəziiyyət dəyişməmişdi, belə davam etmişdi. Özümüzə lazım olan müxtəlif kənd təsərrüfatı mallarını belə yerlərdən almağa məcbur olmuşduq. Ona görə də şəhərdə genişmiqyaslı təmizlik işlərinə başlanması hamının ürəyindən olmuşdu. Həftələrlə çəkilən zəhmət nəticəsində bazardan onlarla maşın, lafet zibil daşınmış, burada müəyyən həqiqətən tanınmaz dərəcədə dəyişib. Qurub-yaradılan yeni ticarət mərkəzinə söz ola bilməz.

Əvvəla, bura genişlikdir, mədəni ticarət üçün hər cür şərait var. Yaradılmış şəraitdən, səliqə-sahmandan, gen-bolluqdan alıcı da razı qalır, satıcı da. Burada tez-tez ucuzlaşdırılmış yarmarkaların təşkil olunması rayon sakinlərinin xüsusilə ürəyindən olur, onları çox sevindirir. Özü də ticarət mərkəzindən təkcə kənd təsərrüfatı məhsulları deyil, sənaye və ərzaq məhsullarını, mallarını da almaq mümkündür. Buradakı gurluğun əsas səbəbi də elə bununla bağlıdır. Bir mərkəzdə bir vaxtda təmizlik, sanitar normalara əməl olunması çox vacibdir. Rayon sakinlərinin istifadəsinə verilən bu ticarət mərkəzi onlar üçün gözəl hədiyyədir. Biz bundan çox sevinirik, mərkəzi tikənlərə, quranlara sağ ol deyirik.

Bizdəki ənənələrə görə yeni ticarət mərkəzi istifadəyə verildikdən sonra köhnə bazar unudulmalı, yaddan çıxmalı idi. Amma belə olmadı. Son vaxtlar köhnə bazar ərazisində aparılan təmizlik işləri də razılıqla qarşılanır. Bu işlər ilk növbədə vaxtı ilə inşa olunan, hazırda isə istifadəsiz qalan yöndəmsiz bazarətrafı tikililərdən başladı. Bu yöndəmsiz tikililərin sökülərək ətrafının abadlaşdırılması, hər

təmizlik, səliqə-sahman yaradılmışdı.

Şübhəsiz, bu, adamları sevindirməyə bilməzdi. Görülən işlərə, yaradılan şəraitə görə sakinlər rayon rəhbərinə, bu işləri görənlərə razılıqlarını bildirirdilər. Amma həyat yerində durmur, sürətlə dəyişərək inkişaf edir, müasirləşir. Mərkəzi bazar nə qədər dəyişsə də, onun da yenidən qurulmasına, müasirləşməsinə ehtiyac vardır. Belə bir yer seçiləndə çoxları buna təəccüb qaldılar. Bu böyük ərazi başdan-başa çirkab, natəmizlik içində idi. Hər tərəfi üfunət bürümüşdü. Adam buraların abadlaşdırılmasına, ərazidə müasir ticarət mərkəzinin yaradılmasına inana bilməsə də, bu günkü fakt, reallıq göz qabağındadır. Ərazi alış-veriş etmək, istədiyini tapıb almaq adamlar üçün çox münasibdir.

Bazar günü olduğundan ticarət mərkəzində daha çox adam vardı. Balıq alan kim, meyvə-tərəvəzləri, göy-göyərtini nəzərdən keçirən kim, ət piştaxtalarına yaxınlaşan kim. Neftçala şəhər sakini Ramiz Quliyevin də əli dolu idi. Yaxşı bazarlıq etmişdi. Yeni ticarət mərkəzi haqqındakı fikirlərini belə ifadə etdi:

— Bura həqiqətən gözəldir, bolluqdur. İstədiyini tapa bilərsən. Son vaxtlar çoxları kimi müntəzəm olaraq mən də buraya gəlirəm. Mərkəzdəki təmizlik, səliqə-sahman hamı kimi mənim də ürəyimdəndir, adama xoş təsir bağışlayır. Xəstəliklərin gündən-günə artdığı tərəfdə təmizlik, səliqə-sahman yaradılması ərazinin mənzərəsini müsbətə doğru xeyli dərəcədə dəyişib. İndi nəinki piyadalar, maşınlar da bu əraziyə girib çıxırlar. Daha əvvəlki kimi sıxlıq, narahatlıq yaranmır.

Rayonumuzda, rayonumuzun mərkəzində işlər dayanmır, davam edir. Özü də təkcə gözə görünən, diqqəti cəlb edən yerlərdə deyil, gözə görünməyən, diqqəti cəlb etməyən, amma narahatlıq doğuran, ümumi səliqə-sahmana xələl gətirən yerlərdə də.

Abadlıq, təmizlik, yaşıllaşdırma işləri genişləndikcə ətraf ərazilərin mənzərəsi də dəyişir, hər tərəf daha gözəl və səliqəli görünür.

Murad ƏHMƏDOV

Yaşıllıqlara qulluq göstərilir

Son vaxtlar rayonumuzda həyata keçirilən tədbirlərdən, işlərdən biri də yaşıllaşdırmadır. Dünyanın bütün işıqlı, zəngin insanları zəhmət çəkib bağ salanları alqışlamışlar. Xalqımızın Ümummilli Lideri Heydər Əliyev də yaşıllığa qarşı çox diqqətli idi. Qanunsuz bir ağacın da kəsilməsinə razı olmazdı, belələrini cəzalandırmağı tələb edərdi. Ona görə ki, yaşıllıq həyatdır, sağlamlıqdır. Atmosferin havasının korlandığı, ekoloji tarazlığın pozulduğu bir vaxtda ağac əkib bağ salmaq, ətrafı yaşıllaşdırmaq öz əhəmiyyətini daha da artırır.

Bütün bunları nəzərə alaraq ilkin yazda rayonumuzun küçə və yollarında, meydanlarda, idarə və müəssisələrin həyətyanı sahələrində və digər yerlərdə çoxlu sayda ağaclar, gül kolları əkilmiş, qazonlar salınmışdı. Amma yay aylarında havaların son dərəcə quraq və isti keçməsi yaşıllıqlara xeyli dərəcədə ziyan vurdu. Bir çox yerlərdə yaşıl ağaclar, qazonlar istinin hərarətindən yanaraq tələf oldular.

Payızın ilk ayından başlayaraq onların bərpası, yaşıllıqların genişləndirilməsi istiqamətində tədbirlər görülməyə başlandı. Rayon icra hakimiyyətində keçirilən toplantıdan sonra bu istiqamətdə işlər daha da canlanmağa başladı.Ayrı-ayrı idarə və müəssisələrin kollektivləri tapşırılmış ərazilərdə lazımi tədbirlər həyata keçirdilər. Torpaqlar şumlanaraq yumşaldılır, buraya peyin verilir, digər tədbirlər görülürdü.

Oktyabrın 25-də şənbə günü Heydər Əliyev Mərkəzinin qarşısında daha çox canlanma vardı. İməciliyə çıxan rayon mərkəzi xəstəxanasının, rayon mədəniyyət və turizm şöbəsinin kollektivləri burada idilər. Hər iki kollektivin üzvləri ərazilərə toxum əkməklə məşğul idilər. Günortadan qabaq onlar yağışlardan sonra arata düşmüş əraziləri qravillədilər. Günortadan sonra isə torpağa qazon toxumları səpildi. Orada bu iş hava qaralana qədər davam etdirildi. Həmin gün şəhər inzibati ərazi nümayəndəliyinin həyətindəki bağda və digər yerlərdə də xeyli iş görüldü, təmizlik və yaşıllaşdırma tədbirləri həyata keçirildi.

Növbəti yağışlardan sonra təbiətdəki canlanma da artdı. Buna görə səpilmiş qazon toxumlarının cücərməsi üçün çox vaxt gözləmək lazım gəlmədi. Onlar da tezliklə torpaqdan boy atmağa başladılar. İndi hər tərəf yaşıllığa bürünmüşdür. Xoş mənzərə göz oxşayır. Adamlar təkcə qazonlara deyil, əkilmiş ağaclara da qulluq edir, onların da sahəsini genişləndirməyə, saylarını artırmağa çalışırlar.

F.AĞAYEV

Hərbi vətənpərvərlik tərbiyəsi

CAĞIRIŞ İŞİMİZİN ƏN QAYNAR VAXTIDIR

Hər işin başlanğıcı, ilki çətin olur, müəyyən problemlərlə müşayiət olunur. Yeni yaradılan müstəqil ölkəmizdə müstəqil ordumuzu qurub yaratmaq, möhkəmləndirmək, müasir vəziyyətinə gətirmək də asan olmayıb. Bunun üçün illərlə, on illərlə vaxt sərf etmək lazım gəlib.

Ötən əsrin 90-cı illərində ermənilərin torpaqlarımıza hücumu zamanı çoxlu sayda itki vermə-yimiz, bir çox hallarda məğlubiyyətə uğramağımız da elə nizami ordumuzun olmaması, əsgərlərimizin qeyri-peşəkarlığı üzündən baş verib. Yüksək döyüş hazırlığına malik ordumuzun olmaması, döyüş bölgələrindəki hərc-mərclik nəticəsində biz həmin illərdə nə qədər igid əsgərləimizi itirdik. O vaxtkı yüksək vətənpərvərliklə ordumuzdakı güc, qüdrət birləşsəydi, yəqin ki, biz torpaqlarımızı itirməz, düşmənə sarsıdıcı zərbələr endirə bilərdik.

Amma çox təəssüf ki, belə olmadı. İctimai həyatımızın digər sahələri kimi ordu quruculuğuna da məhz Ulu Öndər Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra başlandı. Özü də çox sistemli, mütəşəkkil qaydada. Ölkəmiz iqtisadi cəhətdən möhkəmləndikcə, maliyyə resurslarımız artdıqca ordu quruculuğuna ayrılan vəsait də çoxalmağa başladı. Nəticədə bu mühüm sahə də durmadan inkişaf etdi, yeni-yeni uğurlar qazandı.

Əgər Ümummilli Lider Heydər Əliyev bu çətin prosesin bünövrəsini qoyaraq onu xeyli dərəcədə irəli apara bildisə, möhtərəm Prezidentimiz İlham Əliyev ordumuza yeni güc verdi, onun inkişafı, müasirləşməsi, ən güclü silahlarla təchiz olunması üçün əlindən gələni əsirgəmədi. Çəkilən zəhmətin öz bəhrəsini verməsi bizi də ürəkdən sevindirir. Bu gün Azərbaycan Ordusu doğrudan da yenilməz gücə malikdir. İstər döyüş texnikası, istərsə də döyüşgən, güclü əsgəri baxımından. Biz əminik ki, Ali Baş Komandan əmr versə Azərbaycan əsgəri döyüş tapşırığına layiqincə əməl etməyə, düşmənə sarsıdıcı zərbə vurmağa qadirdir.

Azərbaycan beynəlxalq aləmdə, dünya miqyasında tolerantlığı ilə yanaşı sülhsevərliyi ilə də tanınır. Müharibənin nə demək olduğunu hər birimiz çox yaxşı başa düşürük. Ötən əsrin sonlarındakı qanlı döyüşlər bunu bir daha əyani şəkildə göstərdi. Çoxlu sayda əsgərlərimiz məhz bu döyüşlər nəticəsində həlak oldular. Ona görə dövlətimizin başçısı bir daha qan tökülməsini istəmir, münaqişəni sülh yolu ilə, beynəlxalq qanunlar çərçivəsində həll etməyə çalışır. Biz əminik ki, dövlət başçımızın ardıcıl səyləri öz bəhrəsini verəcək. Ordumuzun gündən-günə güclənməsi, müasirləşməsi bizə az söz demir. Avqust hadisələri zamanı düşmənlər də Azərbaycan Ordusunun nəyə qadir olduğunu yaxşı anladılar. Başa düşdülər ki, bu ordu ilə döyüşə girmək onların məğlubiyyəti olacaq.

Turan ƏLİYEV,
Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Neftçala rayon şöbəsinin rəisi

Ordu quruculuğunda silah-sursatla yanaşı gənclərin hərbi hissələrə cəlb edilməsi, döyüş bacarıqlarına yiyələnmələri də çox mühüm əhəmiyyət kəsb edir. Bu mühüm vəzifə isə dövlət başçısının ölkə vətəndaşlarının müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması ilə bağlı imzaladığı sərəncamları ilə tənzimlənir. Prezident İlham Əliyev sonuncu belə sərəncamını bu il sentyabrın 10-da imzalamışdı. Həmin sərəncama əsasən 1979-1995-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşlarının 2014-cü il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması nəzərdə tutulmuşdu.

Çağırış vaxtı işimizin ən qaynar vaxtıdır. Biz təkcə çağırışçıları lazım olan hərbi hissələrə yola salmaqla vəzifəmizi bitmiş hesab etmirik. Həm də çağırışçılarla, onların valideynləri ilə geniş izahat işləri aparırıq, gənclərin veteranlarla görüşlərini keçiririk, maraqlı mövzularda söhbətlər aparırıq. Çağırışçıların ordu sıralarına yola salınması ötən vaxtlarda olduğu kimi bu dəfə də uğurla başa çatmışdır. Verilən normaları müvəffəqiyyətlə yerinə yetirmişik. Bizi sevindirən ən çox odur ki, gənclər Vətənin keşiyinə yüksək əhvali-ruhiyyə ilə yola düşürlər. Bunu özlərinin müqəddəs borcları, şərəf işləri hesab edirlər. Onların xidməti vəzifələrini layiqincə yerinə yetirmələri də bununla bağlıdır. Ayrı-ayrı hərbi hissələrdən şöbəmizə, valideynlərə ünvanlanan təşəkkür məktubları bunu bir daha təsdiqləyir.

Neftçala Vətən sevgili, Vətən qeyrətli insanların məskənidir desək yəqin ki, yanılmarıq. Belə olmasaydı babalarımız Ağaşirin Cəfərov, Əlif Piriyev, onları əvəz edən Xanoğlan Məmmədov, Zakir Məcidov Böyük Vətən müharibəsində, ölkəmizin istiqlalı, bütövlüyü uğrundakı döyüşlərdə ən yüksək adlara — Sovet İttifaqı Qəhrəmanı və Azərbaycanın Milli Qəhrəmanı adlarına layiq görülməzdilər. Bunlar qürurvericidir. Biz inanırıq ki, lazım gəlsə neftçalalı gənclər də öz sözlərini deyə bilərlər. Özü də açıq döyüşdə, düşmənlə üz-üzə.

Müraciət

PENSİYAÇI MÜƏLLİMLƏRƏ GÖNDƏRİŞLƏR NECƏ VERİLİR?

Hörmətli redaksiya, bu məktubu Sizə yazmaqdan məqsədim bir məsələyə aydınlıq gətirməkdir. 70-dən artıq yaşım var. Bunun 50 ildən çoxunu gənc nəslin təlim-tərbiyəsinə həsr etmişəm, müəllim işləmişəm. Dövlətimiz bizə işləməklə yanaşı həm də istirahət etmək hüququ vermişdir. Konstitusiyamızda bununla əlaqədar konkret maddələr vardır. Bunu möhtərəm Prezidentimiz İlham Əliyev də dəfələrlə vurğulayıb. Müəllimlərin istirahətinə, sağlamlıqlarının qorunmasına xüsusilə diqqətlə yanaşılmasını tələb edib. Bu bizi çox sevindirir, qəlbimizdə xoş duyğular oyadır.

Yaşlı adam kimi müalicəyə, istirahətə mən də ciddi ehtiyac duyuram. Bununla əlaqədar respublika Təhsil İşçiləri Həmkarlar İttifaqı rayon komitəsinə dəfələrlə müraciət etmişəm. Sanatoriyalarda müalicə üçün yollayışlara olan ehtiyacım müəyyən qədər ödənilib də. Bu il də özümü yaxşı hiss etmirdim. Buna görə göndəriş üçün rayon komitəsinə yenə müraciət etməli oldum. Komitənin rəhbərliyi elə yanımdaca respublika təşkilatına telefonla zəng vurdu. Oradan bildirdilər ki, hələlik göndəriş yoxdur. Xeyli gözləməli olsam da komitədən bir səs-soraq çıxmadı. Ona görə məcbur olub respublika komitəsinə məktub yazdım, vəziyyətimi onlara da bildirdim. Cavab gəldi ki, Sizə göndəriş yalnız dördüncü rübdə verilə bilər.

Doğrusu, respublika komitəsindən aldığım cavab məni qane etmədi. Yaşlı adam üçün soyuq aylarda müalicəyə getməyin xeyrindən çox ziyanı ola bilərdi. Bunu nəzərə alaraq növbəti məktubumu ölkəmizin Milli Məclisinə ünvanladım, vəziyyətimi onlara da izah etdim. Cavab gəldi ki, məktubum respublika komitəsinə göndərilmişdir. Az keçməmiş komitədən də məktub gəldi. Məlum oldu ki, göndəriş mənə dördüncü rübdə deyil, sentyabr ayında veriləcəkdir. Belə də oldu. Buna görə Milli Məclisin rəhbərliyinə dərin təşəkkürümü və səmimi minnətdarlığımı bildirirəm.

Hörmətli redaksiya, sanatoriyaya bir göndəriş almaqdan ötrü beləcə çoxlu əziyyət çəkdim, neçə-neçə təşkilatları narahat etməli oldum. Doğrudanmı belə olmalıdır? Ümumiyyətlə veteran, pensiyaçı müəllimlərə sanatoriyalara, müalicə mərkəzlərinə göndərişlər verilirmi? Verilirsə necə verilir, hansı təşkilatlar tərəfindən təmin olunur? Xahiş edirəm bu barədə mənə məlumat verəsiniz. Verilən cavablar, gətirilən aydınlıqlar təkcə mənim üçün deyil, müalicə olunmaq, sağlamlıqlarını qorumaq arzusunda olan digər veteran, yaşlı müəllimlər üçün də maraqlı olar.



İdris ABBASOV,
təqaüdçü müəllim

Uşaq və yeniyetmələrin təhlükəsizliyinə xidmət edən tədbirlər

Son illər “Diqqət, uşaqlar!” adı altında hərəkətin təhlükəsizliyi aylıqlarının keçirilməsi artıq ənənə halını almışdır. Respublika daxili işlər nazirinin müavini, polis general-leytenantı Vilayət Eyvazovun 5 sentyabr 2014-cü il tarixli məktubu da bununla əlaqədardır. Məktubda deyilir:

— Respublikamızın ümumtəhsil məktəblərində yeni dərs ilinin başlanması ilə əlaqədar küçə və yollarda nəqliyyat vasitələrinin hərəkət intensivliyinin yüksək olduğu bir şəraitdə məktəblilərin təhlükəsizliyinin təmin edilməsi, xüsusilə uşaq və yeniyetmələrin yol hərəkəti ilə bağlı həyat və sağlamlıqlarının qorunması vacib məsələ kimi qarşıda durur. DİN rəhbərliyinin və yerlərdəki müvafiq qurumların bu sahəyə xüsusi diqqət yetirmələri nəticəsində ölkədə nəqliyyat vasitələri sayının ilbəil sürətlə artması fonunda uşaqlarla bağlı yol-nəqliyat hadisələrinin və qəzalarda xəsarət alanların sayının azalmasına baxmayaraq, cari ilin 8 ayı ərzində respublika ərazisində uşaq və yeniyetmələrin iştirakı ilə baş vermiş yol-nəqliyyat hadisələrində 63 azyaşlının həlak olması, 145-nin isə xəsarət alması ciddi narahatlıq doğurur.

Bu səbəbdən uşaq və yeniyetmələrin iştirakı ilə yol-nəqliyyat hadisələrinin qarşısının alınması istiqamətində profilaktiki tədbirlərin gücləndirilməsi, habelə ümumtəhsil məktəblərində şagirdlərə təhlükəsiz davranış vərdişlərinin aşılanması və tədris prosesinin effektliliyinin yüksəldilməsinə dövlət yol polisinin köməyinin artırılması məqsədilə 2014-cü il sentyabr ayının 10-dan oktyabr ayının 10-dək respublika ərazisində “Diqqət, uşaqlar!” adı altında hərəkətin təhlükəsizliyi aylığının keçirilməsi nəzərdə tutulmuşdu.

Aylıq müddətində xidməti ərazidə uşaq və yeniyetmələrin iştirakı ilə baş vermiş yol-nəqliyyat hadisələrinin təhlilinin aparılması, onların baş vermə səbəblərinin və şəraitlərinin aradan qaldırılması üzrə konkret profilaktiki tədbirlərin həyata keçirilməsi, təhsil müəssisələrinin yerləşdiyi ərazilərdə, habelə uşaq və yeniyetmələrin toplaşdığı yerlərdə, onların hərəkət marşrutlarında yol şəraitinin müayinə olunması, hərəkətin təhlükəsiz təşkili nəzərə alınmaqla müvafiq tədbirlərin, o cümlədən yol nişanlarının qoyulması, yararsızlarının yeniləri ilə əvəz edilməsi, nişanlama xətlərinin çəkilməsi və sair tədbirlərin həyata keçirilməsi, rayon təhsil şöbələrinin, məktəb və məktəbəqədər müəssisələrin əməkdaşları ilə birgə bu müəssisələrdə yol hərəkəti qaydalarına dair profilaktiki və tərbiyəvi-təbliğat tədbirlərinin keçirilməsi, uşaqlara küçə və yollarda təhlükəsiz davranış vərdişlərinin aşılanması məqsədilə məktəblərdə yol polisi əməkdaşlarının iştirakı ilə yol hərəkəti qaydaları üzrə açıq dərslərin keçirilməsi, uşaqlarla bağlı yol-nəqliyyat hadisələrinin profilaktikası işinə təhsil işçilərinin, valideynlərin və ictimai qurumların nümayəndələrinin cəlb edilməsi üçün konkret tədbirlərin görülməsi, eləcə də bu işdə kütləvi informasiya vasitələrinin imkanlarından geniş istifadə olunması və digər məsələlər qarşımıza çox ciddi şəkildə qoyulmuşdu.

Gələcəyimiz olan uşaqlarla və yeniyetmələrlə bağlı bu tədbirə biz də böyük məsuliyətlə yanaşdıq.

Tədbirlər planında nəzərdə tutduğumuz işləri ardıcıllıqla yerinə yetirdik. Əməkdaşlarımızın təhsil müəssisələrində oxuduqları maraqlı mühazirələr, apardıqları səmimi söhbətlər faydalı oldu. Özü də çalışmışıq ki, tədbirlərimizdə təkcə təhsil işçiləri, şagirdlər deyil, valideynlər də yaxından iştirak etsinlər. Bununla yanaşı aylıq müddətində sürücülərlə də əlaqələri genişləndirdik. Şəhər avtovağzalında, nəqliyyat müəssisələrində keçirdiyimiz görüşlər yaddaqalandır.

Aylıq başa çatsa da, bu məsələ həmişə aktual olaraq qalır. Uşaqları qorumaq, onları mühafizə etmək hər birimizin borcudur.

Daxil olan digər bir məktub isə yol-nəqliyyat hadisələrində uşaq travmatizminin qarşısının alınması sahəsində əlavə tədbirlərə dairdir. Məktubda qeyd olunur ki, ötən illər ərzində respublikamızda iqtisadi islahatlar kursu uğurla davam etdirilmiş, ölkə həyatının hər bir sahəsində müsbət nəticələr əldə edilmiş, davamlı şəkildə həyata keçirilən quruculuq işlərinə zəmin yaradan ictimai asayiş, insan hüquq və azadlıqları etibarlı qorunmuşdur.

Bununla yanaşı, yollarda təhlükəsiz davranma qaydalarının vətəndaşlara öyrədilməsi məqsədilə yol hərəkətinin təhlükəsizliyinin təbliğinə xüsusi önəm verilmiş, hər il ölkə ərazisində hərəkətin təhlükəsizliyi aylıqları və həftəlikləri keçirilmiş, respublikanın dövlət və müstəqil telekanallarında hərəkətin təhlükəsizliyi mövzusunda mütəmadi olaraq müxtəlif verilişlər, videoçarxlar, animasiyalar və süjetlər hazırlanıb efirə verilmiş, qanunvericiliyin tələbləri ilə bağlı geniş izahat işləri aparılmış, tamaşaçıların suallarının canlı yayımda cavablandırılması təşkil olunmuş, qəzetlərdə məqalələr çap edilmişdir.

Görülən tədbirlərə baxmayaraq təhlil göstərir ki, azyaşlıların və yeniyetmələrin həyat və sağlamlıqlarının avtomobillərin zərərli təsirlərindən qorunması ilə bağlı tədbirlər yetərli olmamış, bu sahədə travmatizmin profilaktikasının genişləndirilməsinə zərurət yaranmışdır.

Son beş ildə ölkə ərazisində qeydə alınmış YNH nəticəsində 428 nəfər uşaq və yeniyetmənin həlak olması, 1275 nəfərinin yaralanması, xüsusilə də həlak olmuş uşaq və yeniyetmələrin 239-nun, yaralananların isə 727-sinin piyadaların təşkil etməsi narahatçılıq doğurur. Xoşagəlməz hallardan biri də yetkinlik yaşına çatmayanların avtonəqliyyat vasitələrini idarə edərək yol-nəqliyyat hadisələri törətməsidir. 2013-cü il və cari ilin 8 ayı ərzində respublika ərazisində yetkinlik yaşına çatmayanlar tərəfindən 48 belə hadisə törədilmiş, nəticədə 25 nəfər həlak olmuş, 50 nəfər isə xəsarət almışdır.

Məktubda yol hərəkətinin təhlükəsizliyinin təmin olunması sahəsində bu kimi halların aradan qaldırılması, YNH-ləri nəticəsində uşaq travmatizminin qarşısının alınması üçün əlavə tədbirlərin görülməsi, eləcə də bu sahədə fəaliyyətin müasir tələblər baxımından təkmilləşdirilməsi məqsədilə görüləcək işlərə geniş aydınlıq gətirilmiş, bununla əlaqədar konkret tədbirlərin həyata keçirilməsi müəyyənləşdirilmişdir.

Son vaxtlar biz də öz işimizi bu tələblər istiqamətində qurmuşuq və qarşımıza qoyulan vəzifələri ardıcıllıqla yerinə yetiririk.

Natiq SÜLEYMANOV,
rayon polis şöbəsi DYPB-nin baş Dövlət avtomobil müfəttişi, polis kapitanı

Müxalifətə sözüm: ŞƏRDƏN XEYİR GÖZLƏMƏZLƏR

Dünyanın bu günkü siyasi mənzərəsi heç də ürək açan deyil. Bütün xəbər portalları, xəbər kanalları hər gün bir-birindən acınacaqlı məlumatlar yayırlar. Dünən iqtisadi böhran içində çapalayan ölkələri bu gün siyasi böhranlar öz cənginə almışdır. Yaxın Şərq ölkələrinə “ərəb baharı” gətirənlər bu “bahar”ın tufanlarından eninə-uzununa yetərincə bəhrələnməkdədirlər. Hər sakit ölkədə bir “müxalifət” təşkil olunur, silahlandırılır, “terror” qruplaşması yaradılır, sonra da dovşana qaç, tazıya tut deyirlər. Əslində isə ölən, qırılan, itirən, əzilən, məhv olan prinsipcə eyni xalqların, eyni millətlərin övladları və on illər boyu qurub-yaratdıqlarıdır. Belə məhəlli müharibələrdə udan yalnız silah maqnatları, fürsət gözləyən siyasət oyunçuları olur, uduzan isə parça-parça bölünüb bir-birinə qənim kəsilən millətlər. Artıq üzdəniraq “bahar” küləkləri qardaş Türkiyənin də sərhədlərini aşmaqdadır. Belə bir məqamda taleyimizə minnətdar olmalıyıq ki, bizim ölkəmiz, möhtərəm Prezidentimiz İlham Əliyev demişkən, regionda bir sabitlik adasıdır. Bəs bu sabitlik, əmin-amanlıq kimlərə sərf etmir, kimləri narahat edir və yaxud onlara mane olur? Kimlərdir xalqı meydanlara çıxardaraq yenə ondan “bufer”, mühafizə qalxanı kimi istifadə etmək istəyənlər? Onlar xalqa hansı sabahı, hansı gələcəyi, hansı səadəti vəd edirlər? Heç bir aydın ideoloji istiqaməti, heç bir konsepsiyası, hətta utopiyası belə olmayan müxalifət başbilənlərimiz millətə hansı uğur gətirəcək yolu göstərirlər ki, xalq bu yolu buraxıb o yol ilə getsin? Leyla Yunusların, İsa Qənbərlərin, Arif Hacılıların, Əli Kərimlilərin belə bir yolu varsa, bəs hardadır, hansıdır o yol və yaxud cığır?

Bu gün bu bir danılmaz faktdır ki, islam ölkələrini bərbad günə qoyan okeanın o tayından əsən “bahar” küləkləridir. Ən böyük işğalçıdan, ən böyük antihumanistdən kömək gözləmək, “xoşbəxtlik” ummaq, ədalətsizdən ədalət istəmək hansı məntiqə, hansı ağıla sığır və ya uyğun gəlir?

Əgər bu gün ABŞ prezidenti Azərbaycanın adını qeyri-hökumət təşkilatlarının fəaliyyətinə az qala qadağan qoyan ölkələrin adları ilə bir sırada çəkirsə ona belə məlumatları çatdıran kimlərdir? Bəlkə ermənilər onlara belə informasiyalar ötürürlər? Dövlətimizin qanunlarına zidd əməl törətmiş hər hansı cinayətkarın hüquqlarının müdafiəsinə siyasi don geyindirənlər də erməni deyil, əgər erməni olsaydı, bu heç də bizi təəccübləndirməzdi. Bəs kimdir bu milli mənafeyi öz şəxsi ambisiyalarına qurban verənlər?

Azərbaycan düz yetmiş il qırmızı imperiyanın qırmızı torunda çırpındı. Nəhayət, milli müstəqillik əldə etdi, həmin tordan qurtulmağa nail oldu. Müstəqillik dövründə xalqımızın əldə etdiyi nailiyyətlər, maddi və mənəvi yüksəliş, milli təhsildə olan tərəqqi göz qabağındadır və bu inkişaf bu gün də sürətlə davam etməkdədir. Bəs onda görəsən bu dünyada müstəqil yaşamaq niyə kimlərinsə xoşuna gəlmir, bir tordan açılıb başqa bir tora düşmək istəyirlər?

Dünya ibrət dünyasıdır, deyiblər. İraqda Səddam Hüseyni, Liviyada Qəddafini, Misirdə Hüsnü Mübarəki devirdilər, yerinə az qala pultla idarə olunan oyuncaq “rəhbər”lər qoydular. Adı çəkilən üç ölkənin hansının əhalisi xoşbəxt oldu? Hər üç ölkə bu gün fəlakətlər və faciələr içindədir. Hər gün “terror” aktlarında yüzlərlə insan qırılır, amma “terrorçu” tapılmır ki, tapılmır. Belə getsə beynəlxalq təşkilatlarda ölkəmiz haqqında mənfi fikir formalaşdırmağa ermənilər çox da zəhmət çəkməyəcəklər, çünki özümüzdə kifayət qədər bələləri vardır. Bəs bu sapı özümüzdən olan milli “baltalar” nə istəyirlər? Sözsüz ki, son nəticədə hakimiyyət, kürsü, vəzifə və ağalıq — budur onların “anatomiya”sı. Okeanın o tayından “import” olunan demokratiyanın yalnız göz qamaşdıran pərdə olması artıq az qala balaca uşağa da bəllidir. Artıq dünyanın siyasi okeanı çoxdan bulanıb, nə tor görünür, nə tələ. Belə bir məqamda biz də sakit sularımıza daş atıb bulandırsaq, ölkəmizdəki siyasi və iqtisadi sabitliyi qoruyub saxlaya bilməsək gələcək nəsillərimiz bizi bağışlamayacaq. Xalqa quru sözdən və acyalavac “demokratiya”dan başqa nəsə verə bilmək imkanından məhrum olanlar qoy papaqlarını qabaqlarına qoyub yaxşı-yaxşı fikirləşsinlər. Xaricdən heç kəs gəlib bizə nə Qarabağı qaytaracaq, nə də çörək verəcək. Fikirləşin, müxalif cənablar, amma bu dəfə başınızla fikirləşin...

Z.MƏMMƏDOV

GÜNDOĞAR

№35-36-37 (6545) 7 noyabr 2014-cü il

SON SƏHİFƏ

Vətəndaşların nəzərinə!

Azərbaycan Respublikası Prezidentinin tapşırığı əsasında müasir texniki avadanlıqlarla təchiz edilmiş iki xüsusi avtobus vasitəsilə "ASAN xidmət" mərkəzlərinin olmadığı regionlarda "Mobil ASAN" xidməti, yəni səyyar xidmətlər həyata keçirilir.

Belə rayonlardan biri də Neftçaladır. Bunu nəzərə alaraq "Mobil ASAN" noyabrın 13-dən 22-dək rayonumuzda olacaq, vətəndaşlara bu istiqamətdə səyyari xidmətlər göstərəcəkdir.

Bizim müsahibə

ŞAİR SOLTAN ABBASLA ÜRƏK SÖHBƏTİ

Neftçala Azərbaycana adları ilə fəxr etdiyimiz bir çox görkəmli şəxsiyyətlər bəxş edib. Belə şəxsiyyətlərdən biri də tanınmış şair Soltan Abbasdır. Poeziya insan qəlbinin çırpıntıları, hisslərin, duyğuların, düşüncələrin məcmusudur. Bəzən şeirlərinə məftun olduğunuz hər hansı bir şairin yazdığı şeirləri oxumaqla, mütaliə etməklə kifayətlənmirsən, onun özü ilə üz-üzə durub söhbət etməyə, fikirlərini, düşüncələrini öz dilindən eşitməyə, iç dünyasına daha yaxından bələd olmağa ehtiyac hiss edirsən. Azərbaycan Yazıçılar Birliyinin üzvü, qabaqcıl maarif xadimi, Məmməd Araz mükafatı laureatı, qocaman şairimiz Soltan Abbasla aşağıdakı söhbətim də mənim bu daxili ehtiyacımdan əmələ gəldi.

— Soltan müəllim, hər kəs poeziyanı bir cür qiymətləndirir, ona öz düşüncə tərzinə görə dəyər verir. Bəs şair Soltan Abbas üçün poeziya nə deməkdir?

— Mənim üçün poeziya hər an aldığım nəfəs, içdiyim su, ömrümdən ötən saatlar, günlər, aylar, illər... bütün varlığım, ruhumdur.

— Ömrünüzün səksəninci payızı artıq geridə qalıb. Dönüb arxaya baxanda, xəyalən də olsa keçmiş vaxtlara qayıdanda hansı hissləri keçirirsiniz?

— Məmnunluq hissini.

— Şair yalnız şeir yazdığı andamı şairdir?

— Şairlik ilahi vergidir. O, Allah tərəfindən cənab Cəbrayıl vasitəsilə Məhəmməd peyğəmbərə (s) göndərilən vəhy kimi gəlir.

— Sizcə, ədəbiyyatın vəzifəsi, funksiyası nədən ibarətdir? Hər qələmə alınan cızma-qaraya ədəbiyyat, bədii əsər nümunəsi demək olarmı? Bu barədə fikirlərinizi, düşüncələrinizi bilmək istərdim.

— Ədəbiyyat real həyat hadisələrini düzgün əks etdirməli, bədiiləşdirməlidir. Amma indi qəribə dövrdə yaşayırıq. Bir də görürsən bir-iki cızma-qarası olan adamlar da pul verib kitab çap etdirdi. Çox vaxt belə adamlarda o qədər istedad olmur, əlləri isə hər yerə çatır. Bələləri gedib Yazıçılar Birliyinin üzvlüyünə də qəbul olunmağı bacarırlar...

— Yeni ədəbi gənclik gəlir. Bu barədə nə düşünürsünüz?

— Ədəbi gənclik həmişə olub, həmişə də olacaq. Məsələ gənclərin seçiminin düzgün aparılmasındadır. Gənclərə qayğı vacibdir. Heyf ki, belə gələnlər arasında sizin kimi istedadlılər azdır.

— Siz Azərbaycan Yazıçılar Birliyinin üzvü, Məmməd Araz mükafatı laureatısınız. Yazıçılar Birliyinini üzvlüyünə qəbul olunduğunuz günləri necə xatırlayırsınız?

— Azərbaycan Yazıçılar Birliyinin üzvlüyünə xalq şairləri Süleyman Rüstəmin, Xəlil Rza Ulutürkün və Fikrət Sadığın zəmanəti ilə qəbul olunmuşam. Anar müəllimin vurduğu teleqram əsasında birliyin qurultayında da iştirak etmişəm. Həmin Qurultay 1997-ci il oktyabrın 30-da, səhər saat 10-da açıldı və mühüm məsələləri müzakirə etdi. Məmməd Araz ədəbi mükafatına gəlincə isə Məmməd müəllim mənim yaradıcılığıma hələ "Ulduz" jurnalında şöbə müdiri işlədiyi vaxtdan, bəlkə ondan da qabaq bələd idi. "Ulduz" jurnalına da mənim şeirlərimi ilk dəfə o təqdim etmişdi. Aldığım Məmməd Araz mükafatı məhz o vaxtdan gəlirdi. Mən Məmməd Araz mükafatına layiq görüləndə böyük şairimiz hələ sağ idi. Söz yox ki, Məmməd Araz mənim üçün, onu tanıyanlar üçün, bütün Azərbaycan üçün indi də sağdır, həmişə də sağ olacaq.



Neftçalada "Xəzər nəğmələri" ədəbi birliklərini yaradıbsınız, uzun illər bu birliklərə rəhbərlik edibsiniz, "Xəzər nəğmələri"nin indi də rəhbərisiniz. Bu birliklərin yaranması hansı zərurətdən meydana gəlmişdi?

— "Qələbə" qəzetinin nəzdindəki "Kürün töhfəsi" ədəbi birliyi yarananda Neftçala Salyan rayonunun tərkibində idi. Neftçaladan olan bir neçə yazarla həmişə Salyana gedib şeirlərimizi burada çıxan "Qələbə" qəzetinin şöbə müdiri Ziyafət Babayevə oxuyardıq. Bəyənilən nümunələr qəzetin səhifələrində dərc olunurdu. O vaxtlar mənim şeirlərim vaxtaşırı "Ulduz", "Azərbaycan", "Azərbaycan qadını" jurnallarında, "Azərbaycan müəllimi", "Azərbaycan gəncləri" qəzetlərində çap olunurdu. 1971-ci il yanvar ayının 27-də Azərbaycan Yazıçılar Birliyinin səyyar plenumu Salyanda keçirildi. Plenumda Rəsul Rza, Qabil, Əliağa Kürçaylı, Xəlil Rza, Cabir Novruz, Nəbi Xəzri, Məmməd İsmayıl, İlyas Tapdıq, Ağacavad Əlizadə və onlarca başqa şairlər şeirlərini oxudular. Orada mənə və Narınc Xatuna da söz verdilər. Üç şeirimi oxudum. Bəyəndilər. Nəbi Xəzri "İllər və sahillər" kitabını avtoqrafla mənə hədiyyə etdi. Plenumdan sonra "Qələbə" qəzetinin redaktoru Mahmud Ağalarov məni çağırıb dedi ki, artıq vaxtdır, qəzet üçün ədəbiyyat səhifəsi hazırlanmalıdır. Bunun üçün qəzetin nəzdindəki ədəbi məclisi bərpa edib məşğələsini keçirin. Onda bizim ilk qonağımız Ağacavad Əlizadə oldu. Məclisə ad verildi, təşkilati məsələyə baxıldı. Məni sədr seçdilər. Onda mən Boyat kənd səkkizillik məktəbində müəllim işləyirdim.

"Kürün töhfəsi" ədəbi birliyinin bir illik fəaliyyəti ilə bağlı ədəbiyyatşünas alim, akademik İmamverdi Əbilov "Qələbə" qəzetində məqalə dərc etdirdi. Az vaxtda Məmməd Araz, Cabir Novruz, Söhrab Tahir, Rüfət Zəbioğlu, Atif Zeynallı kimi şairlər bizim məclisin qonağı oldular. Məclisə Bakıdan, Gəncədən, Şuşadan, Bərdədən, Gürcüstandan məktublar gəlirdi.

Neftçala Salyandan ayrıldıqdan sonra mən "Xəzər nəğmələri" ədəbi birliyinə sədr kimi dəvət olundum. "Kürün töhfəsi" isə gənc şair Balaş Nuruya tapşırıldı. Məqsəd rayondakı gənc yazarları bir yerə yığmaq, ədəbi mühit yaratmaq, onlara qayğı göstərmək idi.

— Soltan müəllim, ədəbiyyata, poeziyaya bağlı olan bütün yaradıcı ziyalılar respublikanın paytaxtına, Bakı şəhərinə can atır. Bəs Siz nə üçün paytaxta getmədiniz, əyalətdə qalmağı üstün sandınız?

— O vaxtlar mənim Bakıda yaşayıb işləməyə hər cür imkanım var idi. "Pioner" jurnalına işə dəvət olunmuşdum. Yazıçılar Birliyinin xətti ilə ev də qanuni halalım idi. Mənə Salyanda üçotaqlı ev də vermişdilər. Ancaq ora da köçmədim, həmin evi Qulam Sadiqə verdim. Neftçalada da ikiotaqlı evim olub, ancaq köçməmişəm. Məni daha çox kənd həyatı özünə cəlb edib.

— Sizin bir tərəfiniz Aşıq Vəlicanla bağlıdır. İstərdim bir qədər bu barədə danışasınız.

— Haqq aşiqi kəblə Vəlicanı deyirsiniz. Bəli, o mənim ulu babam olub. Aşıq Vəlican Xəstə Qasımın müasiridir. Onun "Gizlənir" qoşması eyni adlı şeirə nəzirədir. Salman Mümtaz iki cildlik "El şairləri" toplusuna Vəlicanın iki qoşmasını daxil edib. Rus folklorşünası Tiflisdə nəşr olunan "Smop" jurnalında Aşıq Vəlicanın "İlan və qız əfsanəsi" qoşmasını dərc etdirib.

— Həyat, ömür, tale Sizə nə bəxş edib?

— Allah verən qismətdən razıyam.

— İtirdiklәriniz necə, olubmu?

— Əzizlərimi itirmişəm.

— Daha çox kimləri xatırlayırsınız?

— Gecə-gündüz qəfil gələn qonaqlarımı, — Məmməd Arazı, Yusif Səmədoğlunu, Vaqif Səmədoğlunu, Sabir Azərini, Ağa Laçınlını, Əhəd Muxtarı, Atif Zeynallını, Ağacavad Əlizadəni... Və bir də əlim çatmayan, ünüm yetməyən doğmalarımı...

— Hansı sual ürəyinizcə oldu?

— Bütün suallar yaxşı idi.

— Hansı sualın səslənməsini istəyərdiniz?

— Ürəyin hansını istəyirsə, dilə gətirə biləcəyin sualı.

— Arzularınız?..

— Azərbaycanımızı bütöv, xalıqmızı həmişə xoşbəxt görmək.

— Zəhmət çəkib söhbətimizə vaxt ayırdığınız üçün Sizə təşəkkürümü bildirirəm.

— Mən də sayğınıza görə təşəkkür edirəm.

Əziz oxucular, bu yazıda verilən suallar və alınan cavablar iki yaradıcı şəxsin ürək söhbəti idi. Bu söhbəti davam etdirmək də olardı. Ürək ki dilə gəldi, susmaq bilmir. Amma düşündük ki, bura qədər bəsdir. Söhbətimiz sizi də düşündürdü, maraqlandırdısa, demək, zəhmətimiz hədər getməyib...

Söhbəti apardı:
Zaur ƏRMUĞAN

YENİ ŞEİRLƏR

BUZLAŞMA DÖVRÜ

Vurduq bir ili də başa beləcə,
Çevirdik oxunmuş səhifə kimi.
Bu son gündüz idi, bu da son gecə,
Bitdi bir təqvimin yarpaq tökümü.
Dalğalı-tufanlı narahat bir il
Tarixə qovuşdu, dünənə döndü.
Qarşıda təzə il — canlı, dipdiri,
Görəsən bu qonaq nə deyir indi?!
Ötən il çox yazıb çox danışdılar
Alimlər qlobal istiləşmədən.
Əriyəcək buzlar, coşacaq sular,
Dənizə dönəcək dərə, dağ, düzən.
Batacaq qurunun böyük hissəsi,
Ölkələr, şəhərlər ölümə məhkum.
Dəli tufanların qorxunc nəfəsi,
Qanadlı səhrada qanadlı səmum.
Ey cənab alimlər, alim cənablar,
Bu sizin fikriniz, proqnozunuz.
Guya yer üzündə istiləşmə var,
Guya bu dünyanı heyran qoydunuz.
Ey dili-qafillər, xəbəriniz yox,
Əslində başlayıb buzlaşma dövrü.
İl ildən, ay aydan, gün gündən soyuq,
İnsanın insana şiddəti, cövrü...
Soyuq küləkləri əsir cahanın
Ölkələr arası, ellər arası.
Köhnə yaraları sağalmayanın
Təzə qan ağlayır təzə yarası.
Yarısı ağlayır, yarısı susur,
Bəlkə cəhənnəmdir, cəngdir bu dünya?
Yerin behişt olsun, ay Səməd Mənsur,
Yəni başdan-başa rəngdir bu dünya?!
Yaranmır təzə bir sevgi nəğməsi,
Yaransa görərəm, eşidərəm mən.
Hələ dodağımda ruhumun səsi,
Hələ yamyaşılam, təzə-tərəm mən.
Dünyanı sevməmək, vallah, eyibdir.
Bəyənirəm, amma bəh-bəhi yoxdur.
Deyəsən bu bağa soyuq dəyibdir,
Bülbülləri susub, cəh-cəhi yoxdur.
Buzlaşma dövrüdür, ya istiləşmə,
Ya mən gülməliyəm, ya mən dəliyəm?
Bu qədər cavanın, gəncin yerinə
Təzədən vurulub mən sevməliyəm?!
Sevgi azalıbdır niyə dünyada,
Sevənləri nələr gözləyir indi?
Adi bir məhəbbət mesajını da
Məxfi şəbəkələr izləyir indi.
Siz ey həqiqətə tələ quranlar,
Qənim kəsildiniz əsil sevgiyə.
Ey isti dünyanı buzlaşdıranlar,
İblisə, şeytana döndünüz niyə?
Niyə qulağınız kar oldu, batdı
Səslənəndə muğam müsabiqəsi?
Dünyanı təzədən söküb yaratdı
Ayşənin nəğməsi, Sərxanın səsi.
Muğamlar qanadlı qızıl çayları,
Göyləri fəth edib döndü fatehə.
Allahla danışan kamanı, tarı
Siz ki, duymadınız, sizə "fatihə"!..
...Bu necə şeirdir, bu necə axşam,
Əlim yana-yana yazdım bir təhər.
Buzlaşma dövründə ocaq çatmışam,
Gəlin əl qızdırın, ay üşüyənlər!..

HACIKƏNDİN PAYIZI

Gözəl şair-həkim dostum Məhəmməd Bəylər Aranlıya

Bir qızıl qanadlı payız səhəri
Açdıq könlümüzün qanadlarını.
Beləcə başlandı payız səfəri,
Dadmağa dağların son baharını.
Qızıla bürünmüş yal-yamac ətri
Axdı qəlbimizə şəlalələr tək.
Başımız üstündə göylərin çətri,
Nuş etdik günəşi piyalələr tək.
Baş açа bilmədik bu möcüzədən,
Yoxdur göy üzündə bir parça bulud.
Saralmış kolların üstünə dən-dən
Brilyant səpilib, yoxsa ki yaqut?!
Çinarlar qıpqızıl, otlar sapsarı,
Elə bil alışıb ağaclar yanır.
Üşüyür qaralmış ocaq daşları,
Enişlər, yoxuşlar, yamaclar yanır.
Buz kimi su içib Qoşabulaqdan
Büllur nəğməsini dinlədik bir az.
Dağılıb başından çalıb-çağıran,
Nə aşıq qalıbdır, nə sədəfli saz.
Yollar kimsəsizdir, cığırlar tənha,
Yaydakı yaylaqdan qalmayıb əsər.
Burda köç salanlar əcəb bivəfa,
Köçəri quşlardan əvvəl gediblər.
Gözləri yaşarıb son çiçəklərin,
Solğun dodağında soyuq gileylər.
Yaxşı ki, burdadır şeir dəftərin,
Bir isti nəğmə de, Məhəmməd Bəylər!
Bir gül təbəssümü, çiçək gülüşü...
Burda çox yazıblar bahardan, yazdan.
Vallah, bəxtimizə xəzinə düşüb,
Hələ yazılmayıb bu qızıl dastan.
Hələ yazılmayıb bu qızıl dastan,
Hələ külçəsinə əl dəyməyibdir.
Dağlara bənzəyən Aranlı oğlan,
Bu dağlar qoynunda meydan sənindir!..

SON BAHAR SEVGİSİ

Uzun çəkdi sənsizliyim,
Yaşadığım illər qədər.
Bir az ümid, bir az qorxu,
Bir az sevinc, bir az kədər.
Bizi də bir Yaradan var,
Bu qaranlıq keçib gedər.
Açar xumar gözlərini
Sənin açdığım səhər, —
Bu ağrıya, bu acıya
Qənim olmaq istəyirəm, —
Sənin olmaq istəyirəm...

Bu gülləri kim ayıldıb,
Qönçəsi də var içində.
Sən adlı su gözləyirlər
Dəryalar, sular içində.
Son baharda sevgiyə bax,
Gəlib şaxta, qar içində.
Saçlarıma qar ələnir,
Ürəyim bahar içində, —
Bu həsrətin sonu varmı,
Əmin olmaq istəyirəm, —
Sənin olmaq istəyirəm...

Sən ki, bahar laləsisən,
Açılsan buzlar əriyər.
Gecələrim gündüz olar,
Göydə ulduzlar əriyər.
Bir möcüzə sorağında
Ürəyim sızlar, əriyər.
Aramızda bitən dağlar,
Dərələr, düzlər əriyər, —
Yuxularım çin olarmı,
Yəqin olmaq istəyirəm, —
Sənin olmaq istəyirəm...



Zabil PƏRVİZ,
"Yeni Dünya" mükafatı laureatı

KİTAB

Yadımdan çıxmır o xanım şairə,
Xatirə danışdı uşaq çağından:
"Nənəm kitabları tökdü təndirə,
Dedi oxumaqdan kor olacaqsan.
O məni sevirdi dünyalar qədər,
Günahkar deyildi, savadsız idi.
Yanıb külə dönən o xəzinələr
Məni bu günəcən yandırır indi."
Dedim ki, o günün tutma yasını,
Bu gün həmin günə verib bəraət.
Kefdədir öz kitab mağazasını
Baqqal dükanına döndərən millət.
Nə fərqi, çevrilsin külə, ya toza,
Yüz təndir qalana, yandırmaz bizi.
Kitab rəfimizi toz basıbdısa,
Çoxdan kül basıbdır ürəyimizi.
Hardadır son dəfə oxuduğumuz
Sonuncu hekayə, sonuncu roman?!
O günlər uzaqda qalıbdır, əfsus,
Əvvəli nağıldı, son ucu roman...
İndi unudulub kitabxanalar,
İşıq sarayları, nur sarayları.
Qulaq as nə deyir indiki qərar,
İndiki dünyanın vur-harayları.
Deyir ki, çevrilib arxaya baxma,
Kompüter əsridir, internet açıq.
Köhnə kitabxana köhnə bir daxma,
Unut o daxmanı, internetə çıx.
Ömürdən yamyaşıl günləri pozduq,
Unut bahar adlı canlı gülşəni.
Virtual məhəbbət, virtual dostluq
Virtual məxluqa döndərsin səni.
Unut kitabları, bir yolluq anla
Bu dövrün tələbi, günün səsidir.
Unut ki, kitabsız imarət, villa
Prinsipcə eynən mal tövləsidir.
Yatırlar, dururlar, yeyib-içirlər, —
Kitabdan danışmaq sərsəm möcüzə!
Oğul evləndirib qız köçürürlər,
Cehizlik bir kitab görsən, möcüzə!
Ruslar bu dünyadan qalıb bixəbər,
Bunlar nə gündədir, nə halətdədir?
Metroda da kitab oxuyur gənclər,
Moskva batıbdır, cəhalətdədir.
Amma ki, biz bizik, canlı bir ovsun, —
Biz ilham vermişik böyük Sabirə.
Adı yaşayırsa, minnəti olsun,
Onu biz çevirdik böyük şairə.
Biz ona od qoyub yandırmasaydıq
Yaza bilərdimi "Hophopnamə"ni?
De hansı millət var bizlərdən artıq
Şairə yazdırsın belə nəğməni:
"Nə bilirdik nə zəhrmarı kitab,
Biz olan evdə haçan vardı kitab?!"
Biz bunu dünyaya təlqin edərik,
Sabirin arzusunu çin edərik, —
Əlvida köhnə kitabxanələrə,
Gedirik tazə, kitabsız səhərə!

Həkim məsləhəti

HAVALAR SOYUYUR, QRİPDƏN EHTİYATLI OLUN

Ən təhlükəli və ən tez yayılan xəstəliklərdən biri də qripdir. Havaların soyuduğu payız, qış aylarında qrip daha qorxulu, daha təhlükəli olur. Buna görə payızda və qışda qripə qarşı xüsusilə diqqətli olmaq, özümüzü hər vasitə ilə bu xəstəlikdən qorumaq lazım gəlir. Yadda saxlamalıyıq ki, qripə yoluxmaq olduqca asan, onun fəsadlarından xilas olmaq isə çox çətindir.

Qrip keçici xəstəlikdir. Bu xəstəliyin virusları hava-damcı yolu ilə yayıldığına görə sağlam adamlar qripli xəstələrlə təmasda olmadan da qripə yoluxa bilərlər.

Bəs qripin əlamətləri hansılardır? Bu xəstəliyin əlamətləri aydın hiss olunur. Qriplə xəstələnəndə ilk növbədə boğazda, sinədə, başda, çox vaxt oynaqlarda ağrılar əmələ gəlir, burundan selik axır, sinədə göynəmə yaranır. Qripin ağırlaşma hallarında hərarət yüksəlir, qulaqda gurultu, güclü öskürək əmələ gəlir. Vaxtında müalicə olunmayanda qrip oynaqlarda, beyində, eşitmə orqanında, ürəkdə kəskin fəsadlar törədir. Hərarət daha da artır, sinədə yanğı, göynəmə, iştahsızlıq, yuxusuzluq əmələ gəlir, səs kobudlaşır, kəskin öskürək nəticəsində kapilyarlar partlayır. Qripin ən ağır fəsadı isə beyin fəsadıdır.



Qurbanxan PİRƏLİYEV,
həkim, əczaçı

Əsas cəhət odur ki, qripə qarşı müalicə əvvəldən düzgün aparılsın, səhv istiqamət götürülməsin. Əks təqdirdə ağırlaşmalar yaranır. Çox vaxt qripin müalicəsində aspirindən və antibiotikdən istifadə olunur. Halbuki bu, qripin müalicəsində əks göstəricidir. Nə aspirin, nə də antibiotik qrip viruslarına öldürücü, əridici təsir göstərə bilmir. Qrip və ya kəskin resperator infeksiya əlamətləri hiss olunanda ilk növbədə həkimə müraciət edilməlidir. Birinci gün 300 milliqram, ikinci gün 200 milliqram, üçüncü gün isə 100 milliqram remantadin, yaxud birinci gün 200 milliqram, sonrakı günlərdə isə 100 milliqram arbidol qəbul etmək, buruna iki damcı interferon tökmək məsləhətdir.

Qriplə mübarizədə mübahisə doğuran məsələlərdən biri peyvənddir. Qripə qarşı peyvənd hazırlamaq olduqca çətin və mürəkkəb işdir. Məsələ ondadır qrip virusları öz xüsusiyyətlərini daim dəyişir, tətbiq olunan peyvəndlərə öyrəşir. Qripin infeksiya virusları A, B və S qruplarına bölünür. Bu viruslarda zülal təbəqəsi olur. O, ayrı-ayrı mühitlərdə öz xüsusiyyətini dəyişir. Məsələn, Braziliya qripi H1N1 illər keçdikcə və bu növün yayılma coğrafiyası genişləndikcə H2N2-yə, daha sonra H3N3-ə çevrilir, vaxt gəlir, ondan H3N2, yəni Honkonq qripi yaranır. Buna görə də müəyyən bir virusa qarşı daimi etibarlı peyvənd hazırlamaq mümkün olmur. Gərək qabaqcadan bilәsən ki, qripin hansı qrupu (ştampı) yayılacaq, ona qarşı da peyvənd hazırlayasan. Təəssüf ki, bunu qabaqcadan bilmək olmur.

Hər il payız aylarında Səhiyyə Nazirliyi sərhədyanı rayonlarda qripə qarşı qabaqlayıcı tədbirlər həyata keçirir. Ancaq qrip virusunun sərhədi olmur. Bu xəstəlik hansı üzvə istiqamət götürsə həmin üzvdə fəsad yaradır.

Qripdən etibarlı şəkildə qorunmaq üçün otağın havasını daima dəyişmək, döşəməni, pənəcərə və qapıları müntəzəm olaraq 3,5 faizli xlorlu məhlulla dəsmallamaq lazımdır. Bir daha qeyd edirik ki, qrip əlaməti hiss edən kimi təcili şəkildə həkimə müraciət edilməlidir. Əks təqdirdə həm özünüzü, həm də ətrafınızdakıları ciddi təhlükə qarşısında qoymuş olarsınız.

2015-ci il üçün mətbuata abunə yazılışı

Hörmətli oxucular!

Respublikamızın ictimai-siyasi həyatı, rayonumuzda görülən işlər, həyata keçirilən tədbirlər, milli mənəvi dəyərlərimizi, ayrı-ayrı insanların ömür yollarını, talelərini əks etdirən maraqlı yazılar və digər materiallar Neftçala Rayon İcra Hakimiyyətinin təsisçisi olduğu "Gündoğar" qəzetinin ana xəttini təşkil edir. Belə yazıları, materialları oxumaq, özünüz də bu yazıların müəllifləri olmaq istəyirsinizsə onda gələn ilin birinci yarısı üçün qəzetimizə abunə yazılmağı unutmayın.

Diqqətinizə çatdırırıq ki, respublikamızın digər mətbuat nümunələri kimi "Gündoğar" qəzetinin əsas maliyyə mənbəyi də abunədir. "Gündoğar" qəzeti də abunədən toplanan vəsait hesabına çap olunur və rayon ərazisində yayılır.

Abunə redaksiyada və "Kapitalbank"ın Neftçala filialında nağd və köçürmə yolu ilə həyata keçirilir.

1 illik abunə qiyməti 40 (qırx), 6 aylıq abunə qiyməti isə 20 (iyirmi) manatdır.

Əlaqə telefonumuz: 3-44-03,
mobil: (050) 333-72-30,
(055) 669-56-71

Tatarməhlə bələdiyyəsinə məxsus Dövlət torpaq kadastrı kitabında 12 oktyabr 2011-ci il tarixli 041 nömrəsi ilə qeydiyyata alınmış AN 374650 saylı "Torpaq sahəsinin plan və ölçüsü" sənədi itdiyi üçün etibarsız sayılır.

ALLAH RƏHMƏT ELƏSİN!

"Gündoğar" qəzetinin baş redaktoru Habil Əsədov və redaksiyanın kollektivi rayon prokurorluğunun əməkdaşı Əli Əliyevə, həyat yoldaşı

SAMİRƏ XANIMIN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
H.Ə.ƏSƏDOV

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır. Şəhadətnamə №268

Ünvanımız:
Az 4700, Neftçala şəhəri, H.Əliyev prospekti 38,
Telefon: 3-44-03
Mobil: (050) 333-72-30, (055) 669-56-71
H/H: №AZ95AIIB33080019446400258164
VÖİN: 6500044671

Qəzet "GÜNDOĞAR"ın kompüter mərkəzində yığılıb səhifələnmiş və "EKSPRESS" mətbəəsində çap olunmuşdur. Dizayn Fərhad Ağayevin, fotolar Muradındır.

Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Tiraj: 750 Sifariş №37
Bir nömrənin qiyməti: 40 qəpik.